SİMA AZADQIZI GÖYÇƏLİ

# QÜRBƏTDƏ PARLAYAN QIĞILCIM

"Elm və təhsil"
Bakı - 2020

***Üz qabığındakı rəsm:***
***Nailə İslamqızı Ələsgərliyə aiddir***

**Redaktor** : **Nadir Məmmədli**
*Filologiya elmləri doktoru, professor*

**Rəyçi** : **Sona Abbasəliqızı**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Sima Azadqızı Göyçəli. Qürbətdə parlayan qığılcım.**
**Bakı, "Elm və təhsil", 2020, 176 səh.**

Kitabdakı poetik nümunələr müəllifin bədii təfəkkürünün genişliyini və dolğunluğunu ifadə edir.Məzmun və mövzu əlvanlığı ilə həmçinin poetik özünəməxsusluğu ilə seçilən bu şeirlərin səmimi vətənpərvərlik ruhu diqqət çəkir. Poetik yükündən, bədii mahiyyətindən asılı olmayaraq, kitabdaki butun seirlərdən poeziya ətri, vətən hərarəti duyulur. Müəllifin poetik dünyası folklor düşüncəsindən qaynaqlanan xəlqi səciyyə daşıyır.

İnanırıq ki, bu kitab oxucular tərəfindən maraqla qarşılanacaq.

**ISBN 978-9952-8405-2-0**

**© Sima Azadqızı Göyçəli , 2020**

## ÖN SÖZ

İstedad uca Tanrının insan övladına bəxş etdiyi ən dəyərli mənəvi sərvətidir. İstedadlı insan həvəs göstərdiyi sahədə özünəməxsus düşüncə və fikirlərlə həmişə seçilir. Seçilmək xüsusiyyətləri istedadın təbiətinə xas olan önəmli cəhətlərin inikasıdır. Xalqımız istedad sarıdan heç vaxt korluq çəkməyib.

Müqəddəs sözün saf çeşməsindən su içənlər o insanlardır ki, onların alın yazısından ulu Yaradanın təbəssümü boylanır. Sima Azadqızı belə istedadlı söz adamıdır.

Sima Azadqızı Göyçəli 1974-cü ildə Ulu Göyçə mahalının Ağkilsə kəndində müəllim ailəsində dünyaya göz açıb. 11-12 yaşlarında "Ələsgər nəvəsiyəm" adlı ilk şeirini qələmə alıb.Sima xanım 01.12.1988-ci ildə erməni təcavüzü nəticəsində ata-baba yurdundan didərgin düşüb.

Gənc yaşlarından ədəbi-bədii yaradıcılığa maraq göstərən Sima Azadqızı Saz-söz sənətinin böyük ustadı Aşıq Ələsgərin kötücəsidir.

Onun poeziyasının əsas mövzusu vətənpərvərlik duyğularının poetik ehtivası, böyük Yaradana, İslam dininə dərin məhəbbətin təcəssümü, həmçinin ləyaqətli insan şəxsiyyətinin səmimi və obrazlı tərənnümü, bununla yanaşı əzəmət və gözəlliyin, həssaslıq və qayğıkeşliyin təbliğidir.

Şairin əsərləri bədii sənətkarlıq, poetika baxımından nəzəri cəlb etməklə bərabər, həm də məxsusi yaradıcılıq fəaliyyətinin xüsusiyyətləri ilə də maraq doğurur. Səmimi ahəngdarlığı, rəvanlığı ilə seçilən şeirləri vətəndaşlıq möhürü ilə təsdiqlənərək, xalqın ruhunu oxşayan şair dəst-xəttini müəyyənləşdirir və geniş oxucu sevgisinin ünvanına çevrilir.

"Qürbətdə Parlayan Qığılcım" kitabına toplanmış poetik nümunələr yetkin şair düşüncəsinin sənət müstəvisində əyaniləşməsidir. Sima Azadqızının şair kimi fərdi yaradıcılıq manerasını səciyyələndirən önəmli xüsusiyyət onun vətəndaşlıq qayəsinin səmimiyyəti və dolğunluğudur.

İstedadlı şairin poetik məfkurəsi milli düşüncənin geniş üfüqlərini əhatə edir. Sima Azadqızının poeziyasının əsas atributu vətənpərvərlik mövzusudur və bu fakt bədii-fəlsəfi dəyəri ilə onun yaradıcılığına önəm gətirib. Onun şeirləri bədii-ictimai məndərəcə baxımından oxucuda maraq oyadır.

Şair vətənimizin mustəqillik rəmzi olan üç-rəngli bayragımıza sevgisini « ZİRVƏLƏRDƏN ENMƏSİN AZƏRBAYCAN BAYRAĞI« adlı lirik poemasında obrazlı poetik detallarla və səmimi duyğularla ifadə edir.

Günəş doğsun cahana,
Şəfəq saçsın hər yana,
Anam Azərbaycana
Nur ələnsin sübh çağı,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Şanlı Azərbaycanım,
Sənə qurbandır canım,
Sənsən şöhrətim-şanım,
Sənsiz şərbətim ağı...
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Sənsən könlümün varı,
Məqamın olsun barı
Hər zirvədən yuxarı,
Yaradandan aşağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

“Bağrı şal” qərənfilin,
Nitqi lal qərənfilin...
Qanlı al qərənfilin
Dönsün nura boyağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Bu sevgi dolu və poetik sanbalı ilə seçilən bədii nümunədən göründüyü kimi Sima Azadqızının lirik qəhrəmanı vətən, yurd həsrətiylə yaşayan insanların bədii obrazıdır.

İnsan mənəviyyatı zəngin və həssas olduğuna görə daxili iztirablarını, sevinc və kədərini həyat və cəmiyyət haqqında düşüncələrini ehtiva etmək üçün daha qüdrətli, həm də ecazkar bir vasitəyə ehtiyac var. Bu bənzərsiz vasitə bədii sənət və onun obrazlı dilidir. Məlumdur ki, yaradıcılıq istedadına malik olanlar həyat haqqındakı fikir və hisslərini sənət dili ilə ifadə edir, digər insanlar isə orada öz fikir və düşüncələrini, həqiqət və arzularını oxucu, dinləyici, tamaşaçı qismində tapmağa çalışırlar.

Hər bir insanın həyata, cəmiyyətə aid görüşləri, özü və başqaları haqqında arzu və niyyətləri, ümidləri özünəməxsus bir istiqamətdə intişar tapır. Lakin istedadlı insanı fərqləndirən başlıca amil, onun həyatda, ümumən insanlıq üçün dəyəri, əhəmiyyətli

cəhətləri, bariz əlamətləri görə bilməsində, sənət dili ilə cilalayaraq, onun fəlsəfi mahiyyətini gözəlliyi və ülviliyi ilə kəşf etməsindədir.

Coxdan düşmən tapdağında qalan ulu GOYÇƏ həsrəti «YAD ƏLLƏRDƏ QALIBDI" bədii nümunədə poetik səmimiyyətlə ehtiva olunur. Sözün işığında doğma yerlərə, qürbət qoxulu xatirələrə üz tutan şairin poetik nəfəsi səmimi və təsirlidir. Bu şeirdə təqdim olunan bədii- etnoqrafik zənginlik diqqətəlayiqdir.

"Çalmalımın" özü boyda dərdi var,
Yaylaqları yad əllərdə qalıbdı.
Göyçə adlı elsiz, əsir yurdu var,
Yaylaqları yad əllərdə qalıbdı.

Perikib qoynunda dincələn ellər,
Həsrətdən saralıb "Göyçə-mən" çöllər,
Boynu bükük qalıb tər qönçə güllər,
Yaylaqları yad əllərdə qalıbdı...

Hər daşında, qayasında tarix var,
Yetim qalıb xatirələr, yazılar...
Mələşmir qoynunda əmlik quzular,
Yaylaqları yad əllərdə qalıbdı.

Əzəmətli zirvəsinə qar düşüb,
"Bəşir düşən" dərəsinə sar düşüb,
Ələsgərin ocağına qor düşüb,
Yaylaqları yad əllərdə qalıbdı...

"Dərəyurd"da məskən salıb yağılar,
Nə bulud ağlayar, nə çən dağılar,
Təsəllidi, nağıllaşan "nağıllar",
Yaylaqları yad əllərdə qalıbdı!

O, poetik dilimizin çoxçeşidli və maraqlı təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların poetik ümumiləşdirməsini özünəməxsus ruhda təqdim etməyi bacarır.

Bu məxsusiliyi önəmsəyən xüsusiyyət geniş və dərin mənada sadəlikdir, həmçinin bu sadəlikdə bədii təravət və poetik rəngarənglik maraq doğurur.

Kitabdakı şeirlərində vətənin, valideyn-övlad məhəbbətinin, doğma ocağın tərənnümü, həmçinin xeyirxahlıq, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği yaddaqalan ovqat aşılayır. Sima Azadqızı Göyçəlinin şeirlərində ata-ana sevgisi, ailəsinə sonsuz sevgi, övlad məhəbbəti səmimi və məxsusi poetikası ilə diqqəti cəlb

edir. Şairin poetik nümunələri fikrimizin bədii təsdiqidir. "**Ana**" şeirinə nəzər yetirək.

Sən coşub-çağlayan dağ şəlaləsi,
Mən o şəlalənin səsiyəm, ANA!
Sən uca zirvənin büllur çeşməsi,
Mənsə, o çeşmənin gözüyəm, ANA!

İlk kəlməm, ilk sözüm anam- birincim,
Mənə həyat verən nəşəm, sevincim,
Qiymətli xəzinəm, FİRUZƏM, incim!
"Talıbxan nanı"nın duzuyam, ANA!

Onun poetik nümunələrində ilahi eşq xüsusi önəm daşıyır. O, Allah-təalaya, müqəddəslərə bəslədiyi nəhayətsiz məhəbbətini misralarında təcəssüm etdirir. Şairin poetik özəllikləri sırasında diqqət çəkən məqamlardan başlıcası odur ki, qələmə aldığı mövzularda hər mətləbi eşqlə əlaqələndirməyi, aydın, sadə dillə fəlsəfi məna ifadə etməyi bacarır.

Sima Azadqızının yaradıcılığında dini-ilahi mövzular bədii sanbalı, poetik təravəti ilə seçilir.

O, dolğun bədii təsvir və ifadə vasitələrindən məharətlə bəhrələnərək, İslamın fəlsəfi dəyərlərini poetik gözəlliklə tərənnüm etməyi bacarır və bu

onun şair istedadının, mənəvi dünyasının, əxlaqının yetkinliyindən xəbər verir.

Kəbəyə cəm etdin əbabilləri,
Hökmün dayandırar axan selləri.
Qoyma, pirə dəysin xain əlləri,
Sənə sığınmışıq, sənə, İlahi!

Doğru yola yönəlt yolun azanı,
Oyat, səcdə qılsın hər Sübh azanı,
Xatırlat Məhşəri, Sirat, Mizanı...
Sənə sığınmışıq, sənə, İlahi!

İman ver insana, uymasın şərə,
Haqqa boyun əysin gündə beş kərə,
Yalnız savabları düşsün dəftərə,
Sənə sığınmışıq, sənə, İlahi!

Diqqətəlayiq haldır ki, bu şeirlərinin keyfiyyət göstəriciləri poetik özəlliyin məna zənginliyinin əsas atributları kimi geniş maraq doğurur.

Sima Azadqızının yaradıcılığında irfan elementləri də öz poetik-fəlsəfi çalarlarını göstərir.

Neçə ad cəmlənib adımda mənim,
Çoxları kül olub odumda mənim,

Yad elli yurd salıb yurdumda mənim,
Qürbətdə Parlayan Qığılcımam mən!

İsmim üzə yoldaş, üz - camalıma...
Qəlbim sözə sirdaş, söz - kamalıma.
İllərdi həsrətəm öz mahalıma,
Qürbətdə Parlayan Qığılcımam mən!

Zülmətdə çağlaram, bilinməz yaşım,
Ziyamdı, hər mömin, qohum-qardaşım,
"Allahın payı"dı ömür yoldaşım,
Qürbətdə Parlayan Qığılcımam mən!

Bu poetik nümunələri mövzusundan asılı olmayaraq, daxili bir bədii məntiq, ümumi bir məna birləşdirir. Müəllifin şeirlərində insana inam və etibar motivi güclü olduğu üçün bu məziyyət poetik nümunənin bədii siqlətinə nikbin əhvali-ruhiyyə, işıq və hərarət qatır.

Onun şeirlərində əxlaqi-mənəvi mövzular lirik qəhrəmanın hiss və həyəcanlarını, duyğu və düşüncələrini əks etdirməklə yanaşı, həmçinin şeirin estetik prinsiplərini də əyaniləşdirir. Lirik qəhrəmanın məhəbbət, sevgi axtarışları, onun imtahanlardan, emosional sarsıntılardan keçən və möhkəmlənən insani keyfiyyətlərinin təsdiqini, həm də şeirlərin məz-

mun və məndəricəsini təşkil edir. Lirik qəhrəmanın daxili aləminin, sevgi hisslərinin, məhəbbət iztirablarının ifadəsi onun söz palitrasında yeni rənglər, yeni çalarlarla üzə çıxır.

Şair ruhunun güzgüsüdür lirika. Çox zaman bu lirik nümunələr qələm sahibinin həyat və cəmiyyət haqqında düşüncələri, fərdi xarakteri, həmçinin şəxsiyyəti barədə dolğun təəssürat yaratmağa imkan verir. Lirik əsərlər obyektiv gerçəklik haqqında şair duyğularının obrazlı ehtivasıdır. Unutmaq lazım deyil ki, şeirin, bütövlükdə lirik əsərlərin bədii sanbalını təmin edən başlıca amillərdən ən önəmlisi səmimiyyətdir.

Lirik əsərlərdə yenilik ruhu o vaxt diqqət kəsb edir ki, orada həyati müşahidə bədii materialın, poetik obyektin yeni cizgilərinə, görünməmiş tərəflərinə nüfuz etmiş olur. Sima Azadqızının şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Bu poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biri onun müasirliyidir, yəni şair müasir həyatımızın təzadlarını, onun insanlara səadət bəxş edən məqamlarını və eyni zamanda insanları əzab məngənəsində sıxan anları poetik məzmunda

ehtiva edərək onu yeni-yeni məna çalarları ilə zənginləşdirir.

Onun şeirlərində milli kolorit qüvvətli olduğu üçün böyük maraq doğurur. Bu cəhət şeirlərin mövzusunda, mütəmadi müraciət olunan qoşma janrının ahəng və ritmində, bədii təsvir vasitələrində nəzərə çarpır. O, insan mənəviyyatının qüdrət və gözəlliyini tərənnüm edəndə də, doğma yurdu vəsf edəndə də, elin adət-ənənələrindən yazanda da kolorit zənginliyi diqqəti cəlb edir.

Bəllidir ki, bədii sənətin gücü böyük ideyanın, dəyərli fikrin obrazlı təcəssümündə, səmimi və təravətli ehtiva olunmasındadır. Bu keyfiyyətlər qələm sahibindən bədii-sözün məna çalarlarını, dilin incəliklərini duymağı, poetik obrazlar sistemində əsərin forma və məzmun vəhdətini yaratmağı, sənət qarşısında daim məsuliyyət hissini qorumağı tələb edir. Bütün bu məziyyətlər şair Sima Azadqızının yaradıcılığında öz əksini tapmışdır.

Şairin yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, yurdsevərliyi, fəallığı mühüm önəm daşıyır. Onun poetik nümunələrində təqdim olunan vətən məhəbbəti, inam və xeyirxahlıq duyğuları, həmçinin Goyçə ağrısı bütövlükdə onun vətəndaş şair obrazının ehtivasıdır.

Hər bir şairin ərsəyə gətirdiyi poetik toplu onun düşüncələrinin, duyğularının bədii aynasıdır. Əlbəttə, şair kitabdan-kitaba öz yaradıcılıq dünyasının sərhədlərini genişləndirməli və yeni poetik ovqatı ilə oxucu marağını qazanmalıdır.

Bu baxımdan "Qürbətdə parlayan qığılcım" şeirlər toplusunu Sima Azadqızının ədəbi uğuru, yaradıcılıq nailiyyəti kimi səciyyələndirmək olar.

Sima Azadqızı Göyçəliyə yaradıcılıq uğurları arzulayıram!

***xalq şairi***
***Nəriman Həsənzadə***

## YAŞA, ŞANLI ORDUMUN ALİ BAŞ KOMANDANI

Payızda bahar gəldi yurduma, açdı çiçək,
Otuz ildir yol gələn xəyallar oldu gerçək.
Tarix yazdın, babamız Nadirşah, Xətaitək,
Dolaşdı Yer üzünü Ulu Türkün dastanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Şükr edirəm Allaha, çiçəklənən yurdum var,
Xalqına xidmət edən Rəşadətli Ordum var,
Kimsəyə yenilməyən "Aslanım", Bozqurdum var,
Qələbə bizimlədir, dövran türkün dövranı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Müzəffər Milli Ordu aləmə səs salıbdı;
Azərbaycan Əsgəri haydan qisas alıbdı,
Düşüncənə, əzminə fələk də mat qalıbdı,
Hər yanda məğlub etdin terrorçu Paşinyanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Şairlər ilham alır hər əsgərin sözündən!
Vətənə sevgi yağır hər əsgərin gözündən.
Əgər bu gün soruşsan hər əsgərin özündən,
Fərəhlə adlandırar səni "Dövrün Xaqanı",
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Azərbaycan birləşir yumruğunu sıxanda,
Uşaq-böyük sevinir ekranlara çıxanda,
Dünya lərzəyə gəlir şimşək kimi çaxanda,
Od-alovlu çıxışın dərdə salır "düşmanı",
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Şanlı tarix yazılır hər günə varaq-varaq,
Üzündəki təbəssüm Zəfərdən verir soraq.
"Ay-ulduzun" yanında nə gəzir "üzdəniraq",
Rəvayətə çevirdin "böyük ermənistanı",
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Yurdumun aslanları hər sözündən güc alır,
Rəşadətli Bozqurdlar çaqqallardan öc alır,
Üçrəngli Ay-Ulduzlum zirvələrə ucalır;
Dalğalanan bayrağım valeh edir insanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Dünən müxalif olan sənə bu gün can deyir,
Neçə milyon birləşib "Can Azərbaycan", - deyir.
Əsil türkün övladı "İlham, Ərdoğan", - deyir,
Ulu Tanrı qorusun İlhamı, Ərdoğanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Gecə-gündüz üzümü tutub "Ərəbistana",
Ürəkdən duaçıyam Turana, Türküstana,
Allah özü yar olsun müsəlman Pakistana,
Görüm minbudaq olsun qardaşın İmran Xanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Tezliklə bu şüarın yetişsin Xankəndinə:
Torpağı azad elə, qayıdır Xan kəndinə!
Qoşa bayraq sancılsın bərəsinə-bəndinə,
Birləşsin Türk Dünyası, qurun Böyük Turanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Çox çəkməz qovuşarıq qan ağlayan Şuşaya,
Tac əbədi məxsusdu xana, bəyə, paşaya,
İnşaallah sancılar bayrağımız "Qoşaya",
Ruhumuzun qidası hər Qələbə elanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Nadürüst "zəfər" dedi düşündüyü plana,
Neçə cür don geydirdi söylədiyi yalana,
Göylərdən nur ələndi Murovdan Zəngilana,
"Tanrının şah əsəri" bəzədi Mincivanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Kor olan dünya gördü Od Yurdunun odunu,
Zirvələrə ucaltdın Azərbaycan adını,
Mənəvi dayağındı Azərbaycan qadını,
Uca Allah qorusun həmdəmin Mehribanı!
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Möcüzələr baş verir hər gün, axır zamanda,
Bizimlədir hər zaman Haqq da, Sahib-Zaman(ə.f) da.
Yağıdan üz döndərib "sehirbaz" da, "şaman" da,
Ayağına gətirdin xaçlını, "müsəlmanı",
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Başının üstə Allah, yenilməz qüdrətin var!
Torpağın bərəkətli, tükənməz sərvətin var!
Dünya həsəd aparır, böyük siyasətin var!
Hiddətinlə ram etdin ayı, tülkü, qabanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Haqq-Ədalət Ordusu səs saldı Ağoğlana,
Yayıldı xoş sədası Dərbənd, Kərkük, Zəncana!
Biz nə vaxt qayıdırıq Qərbi Azərbaycana?
Öz elinə qovuşdur Göyçəni, İrəvanı…
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Yağılar zəbt etsə də Qarabağ tək dilbəri,
Məğlub etmək çətindir sənin kimi rəhbəri!
Sətiraltı sözlərin oldu dillər əzbəri!
Hikmətinlə yaratdın məşhur "İTİ QOVAN"ı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Sözünün sanbalı var, atan Ulu Öndərtək,
Yurdun Cənnət qoxulu, ətirli müşk-ənbərtək,
Zirvədə qıy vurursan qartaltək, səməndərtək,
Hər an qartalsayağı seyr edirsən hər yanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Fəxr edirik, "Qarabağ canımda can", - deyəndə,
Yer titrəyir, "Yaşasın, Azərbaycan!", -deyəndə,
Ermənistan rədd olsun, Qarabağdan!"- deyəndə,
Dərd bürüyür "xunta"nı: "mələk qovur şeytanı",
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Haramdan tutulubdu naxələfin mayası,
Yer üzünün bəlası bu "qaraçı tayfası",
"Tənəzzülə uğradı" qəbilənin xülyası,
Tamahkar yağı oldu öz nəfsinin qurbanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

İkibaşlı əjdaha  zəhər verir ilana,
Gah masona üz tutur, gah müsəlman İrana.
Düşmən şərə baş əyir, biz müqəddəs Qurana!
Qovuşdur bir-birinə Zəngəzur Naxçıvanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Yumruğunla birləşdir parçalanan torpağı,
Zirvələrdən enməsin Azərbaycan bayrağı,
Dalğalansın hər yanda "üçrəngli göyqurşağı",
Qadir Allah ucaltsın Bütöv Azərbaycanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Əbədi od qalasın yurdunda Azər, Baycan,
Qoy həmişə var olsun, Günəşli Azərbaycan,
Əzəl gündən yaranıb atəşli, Azərbaycan,
Müqəddəsdir torpağa axan hər şəhid qanı.
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Şəhidlərin müqəddəs ruhları qoy şad olsun,
Məqamları mübarək, yurdları abad olsun,
Yaralı əsgərlərin işləri avand olsun,
Azad olan hər qarış, qazilərin dərmanı!
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Qan verən yaramızdır  Xocalının yarası,
Yaramızın məlhəmi - Qarabağın xilası!
Sənə ümid bağlayıb hər şəhidin balası!
Yağının caynağından azad et Əsgəranı...
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Azan səsi ucalsın Qarabağın gözündə!
İgidlər "Yallı" getsin Şuşa, "Cıdır düzü"ndə.
Altmış milyon birləşsin Azərbaycan sözündə,
Sarvanına qovuşsun "Əsirlərin karvanı",
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

Simayam, qürbət eldə tükənib səbrim daha,
Mübarək Cümə günü əl açmışam Allaha;
Qoy hər zaman çıxarsın bizi nurlu sabaha,
Sərkərdə İlham adı gəzsin cümlə-cahanı,
Yaşa, Şanlı Ordumun Ali Baş Komandanı!

***23.10.2020. 15:01***

# QÜRBƏTDƏ PARLAYAN QIĞILCIMAM MƏN

Bilmək nəyə lazım adımı mənim?
Zülmətdə çağlayan "Qığılcımam" mən!
Sən ki, görməmisən "odumu" mənim,
Qürbətdə Parlayan Qığılcımam mən!

Haqdan papağım var, hikmətdən çuxam,
Bir sevda gərəkdi, şimşəktək çaxam.
Xəzəl deyiləm ki, küləkdən qorxam,
Qürbətdə Parlayan Qığılcımam mən!

"Ən gözəl surətdə" xəlq edib Xudam,
Sevdiyi ad ilə çağırıb atam...
Mənə bu həyatı bəxş edib anam,
Qürbətdə Parlayan Qığılcımam mən!

Yamyaşıl çəmənəm, küləş deyiləm,
Nə Ayam, nə də ki, Günəş deyiləm,
Alovsuz çınqılam, atəş deyiləm,
Qürbətdə Parlayan Qığılcımam mən!

"Azərin" olsam da, Türk qızı - Türkəm,
Bir bax  neçə yerə bölünüb ölkəm.
Surətim görünmür, nur saçır kölgəm,
Qürbətdə Parlayan Qığılcımam mən!

Göyçətək dilbərim, elim var mənim,
“Bisavad Firuzəm”, ləlim var mənim.
Dədə Ələsgərtək ulum var mənim,
Qürbətdə Parlayan Qığılcımam mən!

Qığılcım od olmaz, ocaq olmasa,
Parlamaz, fitnə-fel, duzaq olmasa.
Qürbət də Vətəndi, uzaq olmasa,
Qürbətdə Parlayan Qığılcımam mən!

Mənə də pay düşüb Haqq Aşığından,
Ustaddan – məclislər yaraşığından.
Yarasa yan qaçar gün işığından!
Qürbətdə Parlayan Qığılcımam mən!

Yad eldə parlayan almazam, zərəm,
Nuru Haqqdan gələn nəqqaş-zərgərəm.
Həmdəmim Xudadır – sahibi kərəm,
Qürbətdə Parlayan Qığılcımam mən!

Haqqdır güvəndiyim, Haqqdır sevdiyim,
Önündə diz çöküb, boyun əydiyim.
Müqəddəs evində kəfən geydiyim...
Qürbətdə Parlayan Qığılcımam mən!

Gözüm yox dünyanın dövlət-varında,
Haqqa sığınmışam Haqq ocağında.
Qalaydım Cənnətin ağ otağında...
Qürbətdə Parlayan Qığılcımam mən!

Gecəyə nur saçan gövhərəm, lələm,
Qeyrətdən yapılmış canlı heykələm.
Hicabım qalxandı, qılıncım qələm,
Qürbətdə Parlayan Qığılcımam mən!

Zahirim, batinim haqq aynasıdı,
Qərq olub batdığım helm dəryasıdı.
Məqamım Dədənin söz dünyasıdı,
Qürbətdə Parlayan Qığılcımam mən!

Dediyim hər sözdə neçə hikmət var,
Düşünüb danışar kamil adamlar.
Sözümdən anlayar aqil olanlar,
Qürbətdə Parlayan Qığılcımam mən!

Neçə ad cəmlənib adımda mənim,
Çoxları kül olub odumda mənim.
Yad elli yurd salıb yurdumda mənim,
Qürbətdə Parlayan Qığılcımam mən!

İsmim üzə yoldaş, üz – camalıma...
Qəlbim sözə sirdaş, söz – kamalıma.
İllərdi həsrətəm öz mahalıma,
Qürbətdə Parlayan Qığılcımam mən!

Zülmətdə çağlaram, bilinməz yaşım,
Ziyamdı, hər mömin, qohum-qardaşım.
“Allahın payı”dı ömür yoldaşım,
Qürbətdə Parlayan Qığılcımam mən!

İffətdən özümə tikmişəm qala,
Həsəd aparmasın meşəyə tala.
Zirvələr baş əyməz yamaca, yala,
Qürbətdə Parlayan Qığılcımam mən!

Hər zaman kəc baxıb əyrilər düzə.
Kirpiklər neyləsin “çöp düşən göz”ə?!
Haqqın qüdrətidi can verən közə.
Qürbətdə Parlayan Qığılcımam mən!

Mənim də adım var zaman içində,
Kiçik bir damlayamümman içində.
Günəş gözdən itməz duman içində,
Qürbətdə Parlayan Qığılcımam mən!

Ruhum pərvaz edir göylərdə mənim,
Yoluma sədd çəkib yağı-düşmənim.
Vətəndə parlasın odum kaş mənim,
Qürbətdə Parlayan Qığılcımam mən!

Qəribəm, soyuma-kökümə bağlı,
Didərgin dərvişəm, Vətən soraqlı.
Göyçə axtarıram əli çıraqlı,
Qürbətdə Parlayan Qığılcımam mən!

Qazandığı ad var dağın-daşın da,
Tarixəm, tarixin qan yaddaşında,
Yurdumdan ayrıldım on dörd yaşında,
Qürbətdə Parlayan Qığılcımam mən.

Mahalım Göyçədi, Ağkilsə kəndim,
Namərdin əliylə dağıldı bəndim.
Odlar Diyarında olsam, nə dərdim,
Qürbətdə Parlayan Qığılcımam mən!

Əbabil quşuyam, görünəm çətin,
Büllurtək zərifəm, poladtək mətin.
Ərəbzəngisiyəm mən bu millətin,
Qürbətdə Parlayan Qığılcımam mən!

Çeşmənin gözüyəm, qaşı deyiləm,
Sözün sərrafıyam, naşı deyiləm.
Neyləyim, "Vətənin daşı" deyiləm,
Qürbətdə Parlayan Qığılcımam mən!

Bir coşğun dənizəm, "dəryadan" dərin.
Qeyrət qanındadı, ərənin-ərin!
Vurğunu deyiləm mən bu yerlərin,
Qürbətdə Parlayan Qığılcımam mən!

Arifdi sözümdən söz anlayanlar,
Aqildi sözümü düz anlayanlar.
Ağ günlə yaşasın "yüz", anlayanlar,
Qürbətdə Parlayan Qığılcımam mən!

Yaxşı ad tikanı gülə döndərər,
Acı söz damlanı selə döndərər.
Od alsam, alovum külə döndərər,
Qürbətdə Parlayan Qığılcımam mən!

Günəş də parlaqdı, Ülkər də, Ay da,
Şölə var Allahın verdiyi payda.
Yazdığım əsərlər bilinməz sayda,
Qürbətdə Parlayan Qığılcımam mən!

“Qürbətdə” olsam da, elə bağlıyam,
“Parlayan” olsam da, külə bağlıyam.
“Qığılcım” olsam da,“LƏL”ə bağlıyam,
Qürbətdə Parlayan Qığılcımam mən!

Vətənin eşqidi ruh verən cana,
Ürəkdən bağlıyam Azərbaycana!
Neçə ki həsrətəm “Bütöv Cahana”,
Qürbətdə Parlayan Qığılcımam mən!

Müqəddəs ocağın atəşi sönməz,
Şeytan fitnəsiylə ruh yerə enməz.
Əhdinə vəfalı, sözündən dönməz,
Qürbətdə Parlayan Qığılcımam mən!

Qəlblərə məlhəmdi Azanın səsi,
Allahdı, hidayət edən hər kəsi!
Məhəmməd ümməti, Əli şiəsi,
Qürbətdə Parlayan Qığılcımam mən!

Hər tale yazılıb Lövhü-məhfuza,
Bulud kölgə salmaz Aya, ulduza.
Tanrı özü yardı, vətənsiz qıza,
Qürbətdə Parlayan Qığılcımam mən!

Mərhəmət bəxşişdi ürfan əhlinə,
Təsəvvüf əhlinə, Quran əhlinə.
Yaradan yar olsun, Turan əhlinə!
Qürbətdə Parlayan Qığılcımam mən!

Zirvəsiz dağ olmaz, divarsız qala,
Müşk-ənbər ətirli gül çətin sola.
Ömür karvanıyla düşmüşəm yola,
Qürbətdə Parlayan Qığılcımam mən!

Qanımda qanı var Növrəs İmanın,
İslam Ələsgərin, həm İsmixanın;
Xanım Fatimənin(s.ə), Sahib-Zamanın(ə.f)...
Qürbətdə Parlayan Qığılcımam mən!

Qırx dörd il yol alan həyat qatarı,
Üz tutub gedəydi Vətənə sarı.
Ulduzum Vətəndə sönəydi barı,
Qürbətdə Parlayan Qığılcımam mən.

"Qırxıncı qapı"nın önündə dayan!
Sirrimi söyləyim, qoy olsun bəyan;
Allahın nurudu mömінə həyan,
Qürbətdə Parlayan Qığılcımam mən!

Göyçəli Simayam - Azadqızıyam,
Hətəmxan soyunun aslan qızıyam,
Nə deyim, bəlkə də dan ulduzuyam?!
Zülmətdə parlayan qığılcımam mən,
Qürbətdə Parlayan Qığılcımam mən!

***25.06.2018. 03:15***

## ƏLƏSGƏR DƏDƏ

Vətəni dardadı, ruhu göylərdə,
Bir əhli-ürfandı, Ələsgər dədə.
Sirri pünhan qalan bir xəzinədi,
Dəryadı, ümmandı Ələsgər dədə!

Bitib-tükənməyən söz bulağıdı,
Yağı Haqdan gələn Haqq çırağıdı.
Əbədi məşəldi, haqq ocağıdı,
Pir, əhli-Qurandı Ələsgər dədə!

Sirli fəlsəfədi sözü-hikməti,
Qılıncdan kəskindi sözün qüdrəti!
Çox qədim, uludu onun milləti,
Oğuz-Türk, ozandı Ələsgər dədə!

Yüz beş il Xudadan dərsin alıbdı,
Sevən ürəklərdə yuva salıbdı.
Məzarı Vətəndə elsiz qalıbdı,
Göyçəyə həyandı Ələsgər dədə!

Sözün qüdrətindən yaranan dağdı,
Kövsərdən bar tutan bəhrəli bağdı.
Ölməz Haqq Aşığı, Ələsgər sağdı!
Dillərdə dastandı Ələsgər dədə!

Odur, hər hikmətə şirinlik qatan,
Haqq ilə ucalan, zirvəyə çatan.
Simanın ruhunu göylərdə tutan,
Canımda bir candı Ələsgər dədə!

***19.06.2018. 17:59***



## MÜTLƏQ GÖRÜŞÜNƏ GƏLƏCƏM BİR GÜN

***(Dayım Ələsgər Ələsgərlinin əziz xatirəsinə ithaf edirəm)***

Acı yellər əsdi, hey, sərin-sərin,
Pöhrəli ağacdan ilk yarpaq düşdü...
Dədə Ələsgərlə ər Ələsgərin,
Didərgin ruhları bu gün görüşdü.

Tanrı töhfəsiydi on iki yarpaq,
Əsdi xəzan yeli on biri qaldı.
Amansız xəstəlik, həm qara torpaq,
Bir zəri zərgərin əlindən aldı...

Atanın-ananın əkiz payıydı,
İlki, əzəliydi qılman Ələsgər.
Mələk Pakizərin əkiz tayıydı,
Pəhləvan Ələsgər, tərlan Ələsgər.

Şam kimi əriyib, sönürdü hər gün,
Vədəsiz solmuşdu ilk məhəbbəti.
Obası virandı, eli didərgin,
Bükmüşdü belini Vətən həsrəti.

Ağkilsə geyinib qəm libasını,
Ələsgər ocağı yas içindədi,
Tərk edib bir tərlan öz yuvasını,
Qız-gəlin hamısı "bir biçimdədi".

..."Qəlbi Haqqa yaxın ləlim, gövhərim",
Necə dayandırım zamanı, vaxtı?!
Pəhləvan cüssəli nər Ələsgərim,
Namərdin zərbəsi səni də yıxdı?!

Ələsgər sevdalı Vətən aşiqi,
Köç etdin, qovuşdun sinədəftərə.
İllərdir, sakindir bir Haqq aşığı,
Sən ayaq basdığın müqəddəs yerə.

"Göyçədən Göygölə pənah gətirən",
Ələsgər aşiqi, Ələsgər dayım!
Sirrini özüylə Haqqa götürən,
"Şairlik elminə həvəskar" dayım!

Sanırdım yaxında görüşəcəyik,
"Sirrini açmadım" mən etibarsız.
Axı söz vermişdin, "deyişəcəyik",
Sözünü tutmadın sən "etibarsız".

Gözümdə canlanır son görüşümüz,
Hər kəlmən, hər sözün yaddaşımdadı.
Yaman ağır oldu "son döyüşümüz",
Bu gündən öz əlim öz başımdadı...

Simayam, öldürür vicdan əzabı,
Min kərə dirilib ölürəm hər gün.
Məni də gözləyir Haqqın hesabı,
Dayı, görüşünə gələrəm bir gün,
Mütləq görüşünə gələcəm bir gün...

***15.04.2019.***
***00:37***

# TƏBRİKİNƏ KİMLƏR GƏLDİ, ŞƏHİDİM

*(Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olmuş nakam əmim oğlu,"Bəy"şəhidimiz Məmmədov Bəylər Eldar oğlunun əziz xatirəsinə ithaf edirəm)*

Bəy şəhidim, bu gün "Gümüş toy"undu,
Təbrikinə kimlər gəldi, igidim?!
"İyrimbeş il" sənsiz keçən bir ömür,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Bu gün toy-büsatdı haqq dünyasında,
Bəzənib, durmusan bəy libasında,
Al qanın dil açıb toy xınasında,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Babam Bəylər ağsaqqaldı toyunda,
Bayram toy qardaşın, durub yanında,
Qonaq qarşılayır Vəli dayın da...
Təbrikinə kimlər gəldi, şəhidim?!

Yığılıb başına neçə "bəy şəhid",
Milli Qəhrəmanlar: Mübariz, Fərid,
Etibar, Şahin tək neçə ər-igid…
Təbrikinə kimlər gəldi, şəhidim?!

Neçə güllə canındadı, bilirəm,
Azad əmin qanındadı, bilirəm,
Nofəl, Aslan yanındadı, bilirəm,
Təbrikinə kimlər gəldi, şəhidim?!

İki kərə toy mağarın quruldu,
Üçüncü çörəyin qəmdən yoğruldu,
Eldar əmim "Bəy, Bəy!" deyib, qovruldu,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Könüllü yollanıb, canından keçdin,
Bu fani dünyadan pöhrəsiz köçdün,
Şəhid badəsinin şərbətin içdin!
Təbrikinə kimlər gəldi, şəhidim?!

Yar seçdin Vətəni, uğrunda öldün,
Sevgini, sirrini onunla böldün.
Vaxtsız xəzan oldu, vədəsiz soldun,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Əbədi şüardı: "Şəhidlər ölməz!
Hər şeydən pay olar, Vətən bölünməz!"
Səni şəhid seçdi "gözəgörünməz",
Təbrikinə kimlər gəldi, şəhidim?!

Hər kəs layiq olmur verilən ada,
Çəkib toy xərcini şəhid-Şühəda(ə.s),
Toy mağarı qurub Şam, Kərbəlada,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Göründü məclisdə Xatəmün-Nəbi(s.s),
Çağırdı Həsəni(ə.s), Xanım Zeynəbi(s.ə),
Səni salamladı Səccadla(ə.s), "bibi",
Təbrikinə kimlər gəldi, şəhidim?!

Al-qara bəzənib qan içən səhra,
Xonçanı bəzəyib Fatmeyi-Zəhra(s.ə),
Sahibə nənəylə, nəvəsi Zəhra…
Təbrikinə kimlər gəldi, şəhidim?!

İlham Fərizənin ömür yoldaşı,
Qanlı qərənfildi dostu-sirdaşı,
Halay vurur neçə şəhid qardaşı?!
Təbrikinə kimlər gəldi, şəhidim?!

Həzrət Əli(ə.s) "Zülfüqarı" əlində;
"Kəlmeyi-şəhadət", "Təkbir" dilində.
Zülfü, İsmət, Alı haqqın yolunda…
Təbrikinə kimlər gəldi, şəhidim?!

Ağdərədə kim hay verdi hayına,
Ağdamda nəyiydi düşən payına.
Xocalıdan nəmər gəldi toyuna?
Təbrikinə kimlər gəldi, şəhidim?!

Göyçəmiz ağlardı, əsirdi torpaq,
Kimin əlindədi al rəngli bayraq,
Kimin əynindədi üçrəngli bayraq,
Təbrikinə kimlər gəldi, şəhidim?!

“Bəy tərifi” deyir Dədə Ələsgər,
Ülvi ilham alır, əl çalır əsgər.
Çingiz lentə alır, güc alır əsgər,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Nənəmiz Güləndam laylanı çalır,
Yoxsa ağı deyib, qardaş axtarır.
Xanlar, Hacıbalı, Mahir hardadır?!
Təbrikinə kimlər gəldi, şəhidim?!

Ülviyyədi, toy güzgüsü əlində?
Bəyaz mamam, "maman qurban" dilində.
Salatındı, toy xonçası qolunda?!
Təbrikinə kimlər gəldi, şəhidim?!

Osman baban, Həcər nənən yanaşı,
Sərəncam mamamız dəmləyir aşı.
Hamaya mamamız tökür göz yaşı
Təbrikinə kimlər gəldi, şəhidim?!

Bostanın talanıb, saralıb zəmin,
Dəryada qərq olub, batıbdı gəmin.
Gəlib harayına Ramazan əmin
Təbrikinə kimlər gəldi, şəhidim?!

Bilməm, xəbəri var Bəhlul əmimin?!
"Çatdın harayına" Sehran nənəmin.
Soldu tər qönçəsi nazlı sənəmin,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Qan ağlayır Ağkilsənin hər qışı,
Yaxır yanağımı gözümün yaşı,
"Bəy" deyir səslənir hər məzar daşı,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Canından çox sevdin Azərbaycanı,
Toyunun sədası gəzdi dünyanı.
Əli Qurban, aşıq Alqayıt hanı?!
Təbrikinə kimlər gəldi, şəhidim?!

Qəribçün məzardı yad ölkə-diyar.
Vətən oldu sənə ən vəfalı yar.
Bilmirəm, toyunda daha kimlər var,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Sənli xatirələr geridə qaldı,
Sevincin yerini qəm-kədər aldı.
Bu günkü gününü kim yada saldı?!
Təbrikinə kimlər gəldi, şəhidim?!

Daha gəlmir Göyçəgölə sonalar,
Dözmür bu hicrana ellər-obalar;
Nurani nənələr, aqil babalar.
Təbrikinə kimlər gəldi, şəhidim?!

Yenə səsləyirəm Sahib-Zamanı(ə.f),
Bilal Həbəşini, Farsi-Səlmanı.
Şair İsmixanı, Növrəs İmanı,
Təbriki kimlər gəldi, şəhidim?!

Atamın sevimli qardaş payıydın,
Gündüz Günəşiydin, gecə  Ayıydın.
Dəliqanlım, Əbəlfəzlin(ə.s) tayıydın,
Təbrikinə kimlər gəldi, şəhidim?!

Heç bir gəncin ömrü vaxtsız solmasın,
Vüsalın yerini hicran almasın.
Qisasımız Qiyamətə qalmasın!
Təbrikinə kimlər gəldi, şəhidim?!

Simayam, həsrətə dözə bilmirəm,
Ayağım qandallı, gəzə bilmirəm.
Bağışla, toyunda "süzə bilmirəm",
Təbrikinə kimlər gəldi, şəhidim?!

***18.02.2018. 12:50***

## BƏXTİMƏ DÜŞƏN ULDUZ

Üç bacının qardaşı, altı oğuldan biri,
Yox tayın-bərabərin, el-el gəzsəm hər yeri.
İlahinin qisməti, Tanrının töhfəsisən,
Qəlbi təmiz, yolu düz, saf Allah bəndəsisən!

Doğru-dürüst, halalsan, haram yoxdu əlində,
Zərrə qədər yalan yox, sözündə, əməlində.
İstəmirəm mənimçün yeni dünya qur, yarat,
Səninlə keçən hər an bizə yeni bir həyat.

Üç ər-igid övladın döyünən ürəyisən,
Süfrəmin halal duzu, ruzisi- çörəyisən.
Xudam gözəl yaradıb, hər kəsin gərəyisən,
Ağır elin dayağı, arxası, köməyisən.

Evimizin dirəyi, başımızın tacısan,
Ocağının başında qazanmısan "həcci" sən.
Həccə getmək, ibadət; - bunlar bir vacibatdı,
Qazandığın təmiz ad bizimçün kainatdı!

Xoş gününə sevinir səni qəlbən sevənlər,
Şəninə  xoş söz deyir kimliyini bilənlər.
Bəxtimə düşən Ulduz, Yaradanın payısan,
Sima adlı dünyanın Günəşisən, Ayısan!

Nurundan, işığından dünyam nura qərq olur,
Fani dünya belədir: gah boşalır, gah dolur.
Taleyimiz yazılıb, qoşa addımlayırıq,
Haqqa qovuşmaq üçün günümüzü sayırıq.

Demirəm ki yazmışam məhəbbət dastanını,
Xanım Zəhra(s.ə) pir seçdi "Allahın aslanını"(ə.s).
Sənə qoyduğum hörmət sevgidən doğan bir hiss,
Olmasaydı sınaqlar tanınmazdı yaxşı, pis.

Haqsızlığa "yox!" deyək, seçək ağı qaradan,
Qoy, bizi Cənnətinə sakin etsin Yaradan!
Keşməkeşli dünyada həyat keçib yarıdan,
Hər gün bir kərpic düşür ömür adlı barıdan.

Ömür payını sağlam, xoşbəxt, mənalı yaşa,
"Yüz"ün astanasında sən  ömrünü vur başa,
Allah mərhəmət edir mömin olan yoldaşa,
Şeçilmiş bəndələrlə adın çəkilsin qoşa!

***19.05.2018. 01:43***

## YA SAHİB ƏZ-ZAMAN(Ə.F), GƏL.

Yer üzünü zülm alıbdı, yetiş imdada sən, gəl,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!
Məkkə, Mədinə torpağı zalimlərdədi, sən gəl,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Neçə igid cəngavərin adsız qalıb ünvanı,
O yerlərdən keçib-gedib "Əsirlərin karvanı",
Əl açıram, yalvarıram, yol göstərsin "sarvanı",
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Kərbəlada Yezid içmiş Hüseynimin(ə.s) qanını,
Hər kəs göz yaşıyla anır onun şəhid anını,
Daim sevək, uca tutaq al rəngli bayrağını!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

İki dünya xanımının yandı ciyərparası,
O Fatimeyi-Zəhradı(s.ə), şəhidlərin anası,
Hər gün dərdi təzələnir, qaysaq tutmur yarası...
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Xanım Zeynəb nalə çəkdi: qardaş qana boyandı,
Rüqayyə hey fəryad etdi, "Ata..!" deyib, oyandı,
Yandı ata həsrətiylə, körpə qəlbi dayandı,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Dəclə-Fərat qan ağlayır, bulanıqdı suları,
O torpaqda qurban getdi Əbəlfəzlin(ə.s) qolları,
Əsrlərdi o yerlərdə müşrik kəsmiş yolları,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Şükür, Mosul  azad oldu , firəvandı bu gundən,
Azadlığa can atırdı hər kəs cani-könüldən,
Duaçıyam hər şey üçün, gözəl gəlsin il ildən,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Nəcəf, Kufə, Şam, Samərra hər gün səni səsləyir,
Allahın aslanı-Əli(ə.s) intizarla gözləyir,
Uca Rəbbim pünhan tutur hələ, səni gizləyir...
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Neçə ildi yağılarda, haqsızlarda o torpaq,
Amalları yalnız bir şey: İslamı gözdən salmaq;
O yerlərdə rahat gəzib, o torpaqda ucalmaq.
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Dəməşq, Hələb şəhərini dağıtdılar-sökdülər,
Nəsiminin məzarını yerlə yeksan etdilər!
Kərbəlada Füzuliyə necə "divan tutdular"!?
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

“Mömin”lərin sayı artıb, imanımız azalıb,
Yer üzünü dərd bürüyüb, nalə ərşə dayanıb,
Neçə körpə məsum bimar al qanına boyanıb!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Münafiqdi, hər tərəfdə binə salıb, ucalan,
Uyub şeytan fitnəsinə, iblisindən güc alan,
Kafirlərin kölgəsində pöhrələnib qocalan!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Məkkə, Mədinə torpağı artıq bu qandan doyub!
Neçə mürsəl peyğəmbərlər o yerlərdə iz qoyub,
Açıq Kəbə qapıları hər gün sənə “gəl!” deyib,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman, gəl!

İtmiş “Bəqi məzarlığı”, məzara yoxdur hörmət,
Həsən-Müctəbayla(ə.s) birgə uyur neçə əhli-beyt,
Xanımlara qadağandı nədən qəbri ziyarət?!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Quran ilə zəfər çaldı Rəsul - Xatəmin-Nəbi(s.s),
Qızı “Ümmü-Əbiha”nın pünhandı nurlu qəbri,
(Allahım, sən əsirgəmə, hər an bizə ver səbri),
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Fələstində həkk olunub haqsızlıqlar hər daşa,
Peyğəmbəri meracına yetişdirib Əl-Əqsa.
İnanırıq, gözləyirik, həyat var, ümid varsa,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Məşhəd, Kərbəla, "Həcc" məni yenə səsləyir, gəlim,
Qoy, Yer üzü sülhə gəlsin, bəxtiyar olsun, elim,
Əgər taleyimdə varsa, yolunda şəhid olum!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Hər işimiz uğur olsun, İlahidən güc alaq,
Təqvalı, imanlı olaq, din yolunda qocalaq!
"Kəlmeyi-şəhadət" ilə Haqqa doğru ucalaq!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Neçə vaxtdı intizarda parçalanmış cahanım;
Ulu Göyçəm, Zəngəzurum, səfalı Qarabağım..!
Çiçəklənsin, abad olsun, Bütöv Azərbaycanım!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Kimyagərlər tarix yazır, "təsvir" deyir bu ada,
Hər yazı bir ləkə vurur neçə-neçə ustada,
Yaradanın izni ilə özün yetiş imdada,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

İmanları birə mindi, “**bonjur**” deyən qardaşa,
İsnad verib güvənirlər “üzdəniraq sirdaşa”,
İsrar ilə söykənirlər xain-nadan yoldaşa,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Göyçə dərdim təzələnir, yaralarım qan verir,
Hər qəbirdən səda gəlir, hər məzar fəryad edir:
“Saxtalaşır tariximiz, torpaqlar əldən gedir..!”
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Haqq aşığı Ələsgərin “qısaldılıbdı ömrü”,
Aşıq Alı oğuz türkü, nədən yazılır “milli”?!
Ağ aşıq Allahverdinin deyilmir əsli kimdi!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Neçə gəncin ömrü hər gün şama dönüb, əriyir,
“Amansız dərd” macal vermir, öz cəngində sürüyür,
Hər yaxını qara geyir, hər yan siyah bürünür...
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman, gəl!

Allahıma sığınmışam hər günümdə, hər yerdə,
Tanrı özü şəfa versin Yer üzündə hər dərdə!
Şənlik üçün yığılsınlar dost-qohumlar hər eldə!
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Bu həyatın sınağıdı, hamı keçər bu yoldan,
Sorğu-sual olunacaq Qiyamətdə hər quldan,
Günahları bağışlasın kainatı yaradan,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Əsrlərdi zührun üçün dua edir hər mömin,
Həsrətindən yer ağlayır, göy ağlayır günbəgün!
Hər zamanın öz hökmü var, öz imamı hər dövrün,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Əhli-beyt aşiqləridi səni sevən möminlər,
Gecə-gündüz fəryad edib, göz yaşını tökənlər.
Gəl, qovuşsun imamına həsrətini çəkənlər,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

Hacıxanım Sima çəkməz o şad günün fikrini,
İmanını kamil eylər, hey artırar şükrünü.
Nə qədər biz tələssək də, Allah verər hökmünü,
Gəl, haqqı bərqərar eylə, ya Sahib əz-Zaman(ə.f), gəl!

***Allahummə salli əla Muhəmmədin***
***və ali Muhəmməd və əccil fərəcəhum!***
***12.07.2017. 02:26***

## SƏNİNLƏYİK, AZƏRBAYCAN!

Ayrılsaq da torpağından,
Səninləyik, Azərbaycan!
Güc alırıq bayrağından,
Qoy eşitsin bütün cahan,
Səninləyik, Azərbaycan!

Bu gün səndən gen düşsək də,
Yurddan didərgin düşsək də,
Hicran odunda bişsək də,
Ruhumuzla hər vaxt, hər an,
Səninləyik, Azərbaycan!

Həsrət bizi dağlasa da,
Bağrımız qan ağlasa da,
Yolumuz buz bağlasa da,
Ayrılmazdır könül candan,
Səninləyik, Azərbaycan!

Sən Tanrının öz yurdusan,
Od Diyarı, Köz Yurdusan,
Ulu Türkün Bozqurdusan,
Çaqqallara vermə aman,
Səninləyik, Azərbaycan!

Bakı, Abşeron küləkli,
Qədim Gəncə şir ürəkli,
Birliyin xalqa gərəkli,
Kaş, qurulsun Böyük Turan,
Səninləyik, Azərbaycan!

Hər qarışın anamızdır,
Qarabağ can paramızdır,
Sağalmayan yaramızdır,
Göyçə, Zəngəzur, İrəvan…
Səninləyik, Azərbaycan!

Qisas qalmasın Məhşərə,
Zəfər çalsın Xeyir şərə,
Yolunu azan bəşərə
Qənim olsun İncil, Quran,
Səninləyik, Azərbaycan!

Qarabağa getmək üçün,
Zirvələr fəth etmək üçün,
Azadlığa yetmək üçün,
Sənə qurban olsun bu can,
Səninləyik, Azərbaycan!

Duaçıdır Azadqızı,
Kömək olsun Tanrı özü,
Aydın olsun türkün gözü!
Düşmən olsun yerlə yeksan!
Səninləyik, Azərbaycan!

***11.10.2020. 02:30***



## ZİRVƏLƏRDƏN ENMƏSİN AZƏRBAYCAN BAYRAĞI (ixtisarla)

Günəş doğsun cahana,
Şəfəq saçsın hər yana,
Anam Azərbaycana
Nur ələnsin sübh çağı,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Şanlı Azərbaycanım,
Sənə qurbandır canım,
Sənsən şöhrətim-şanım,
Sənsiz şərbətim ağı...
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Sənsən könlümün varı,
Məqamın olsun barı,
Hər zirvədən yuxarı,
Yaradandan aşağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Türklüyün “göy” rəngində,
Torpağın “hay” cəngində,
Azadlığın “cəngi”də,
Yox bir “fikir ortağı”,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Millətin “Cəngi” çalsın,
Kainata səs salsın,
Ömürlük şikəst qalsın
Müxənnətin barmağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Ucadır adın-sanın,
Təhlükədir hər anın,
Bədəsildir dörd yanın,
Kəsdirib solu, sağı...
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Düşdüm Haqqa minnətə,
Rəhm etsin bu millətə.
Qaranlığa, zülmətə
Dönməsin bəy otağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Xoşbəxt olsun hər ana,
Qıymasın şirin cana.
Boyanmasın al qana
Ağ gəlinlik duvağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Dağın laləzar gülü,
Düzün çəmənzar gülü...
Əlində "məzar gülü"
Millət deməsin ağı,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

"Bağrı şal" qərənfilin,
Nitqi lal qərənfilin...
Qanlı al qərənfilin
Dönsün nura boyağı,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Siyahla "bəzənməsin",
Özgəyə bənzəməsin.
Hüsnünü "bəzəməsin"
"Xalxın çəkic-orağı",
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Üçrəngli "Ay-Ulduzum",
Allahdan pay ulduzum,
Yollarına gül düzüm,
Azərbaycan sayağı,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Qanadlansın "Sülh" sözü,
Gülsün hər kəsin üzü,
Nur saçsın "Cıdır düzü",
"Turşsu", "İsa bulağı"…
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Qoynunda telli sazla,
Süfrəndə çörək-duzla,
Bəzənsin "Ay-Ulduz"la
"Azər", "Baycan" bayrağı,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Ürəklər bir döyünsün,
Qız-gəlinlər öyünsün.
Yamyaşıl don geyinsin
Qanlı "Qırxqız yaylağı"!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Övladıyıq bir "mən"in;
Bir başın, bir bədənin...
Azad olsun Vətənin
Hər bir qarış torpağı,
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Qəlblərdə salmış yuva
Məhəmməd Əmin baba!
Onu sevdi el-oba,
Göynətdi "oğul dağı..."
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Davam etdi bu yolu,
Heydər Əlirza oğlu!
Əsl qeyrət simvolu
Ərənlərin papağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Satqınlara ar olsun,
Tanrı bizə yar olsun,
Azərbaycan var olsun,
Daim yansın çırağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Mavi, yaşıl, qırmızı,
Gözəldir al qırmızı,
Başına sal qırmızı,
Hər il bayramqabağı.
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Alovun Haqq məşəli,
Övladın Haqq nəşəli,
“Hilal-Səkkizguşəli”
Əsl türkün mayağı.
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Torpağın, suyun halal,
İmansızın nitqi lal,
Qoy “Azan çəksin Bilal”,
Məhv olsun düşmən-yağı.
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Xoş günləri yad edək,
Könülləri şad edək,
Yağıdan azad edək
Göyçəni, Qarabağı…
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Ömrün gözəl çağıdır,
Yurdum Cənnət bağıdır,
Düşmənə göz dağıdır
"Babasının qulağı"!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Arzular qanad açsın,
Səmada quştək uçsun!
Yolunda işıq saçsın
Ələsgərin ocağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Şəhadət uca addır;
Ölmək - yeni həyatdır,
Bəndəyə mükafatdır
Allahın hər sınağı.
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

Adına qızın qurban,
Dadına çatsın Quran!
Duaçıdır hər zaman
Sadiq "Allah qonağı":
"Zirvələrdən enməsin
Azərbaycan bayrağı!"

Simayam - hacıxanım,
Büllurtək pak vicdanım,
Saf sudan safdır qanım,
Türkəm - türkün uşağı!
Zirvələrdən enməsin
Azərbaycan bayrağı!

***24.01.2020. 01:05***

## YAD ƏLLƏRDƏ QALIBDI

"Çalmalı"mın özü boyda dərdi var,
Yaylaqları yad əllərdə qalıbdı.
Göyçə adlı elsiz, əsir yurdu var,
Yaylaqları yad əllərdə qalıbdı.

Perikib qoynunda dincələn ellər,
Həsrətdən saralıb "Göyçə-mən" çöllər,
Boynu bükük qalıb tər qönçə güllər,
Yaylaqları yad əllərdə qalıbdı...

Hər daşında, qayasında tarix var,
Yetim qalıb xatirələr, yazılar...
Mələşmir qoynunda əmlik quzular,
Yaylaqları yad əllərdə qalıbdı.

Çalması fikirdən, dərddən sökülüb,
Tel-tel olub, yamaclara tökülüb...
İntizar çəkməkdən qəddi bükülüb,
Yaylaqları yad əllərdə qalıbdı.

Köz-köz olub bağrı qana boyanıb,
Müqəssir tək boynubükük dayanıb,
Biz dözmüşük ayrılığa, o yanıb,
Yaylaqları yad əllərdə qalıbdı...

Əzəmətli zirvəsinə qar düşüb,
"Bəşir düşən dərə”sinə sar düşüb,
Ələsgərin ocağına qor düşüb,
Yaylaqları yad əllərdə qalıbdı...

"Dərə yurd”da məskən salıb yağılar,
Nə bulud ağlayar, nə çən dağılar,
Təsəllidi, nağıllaşan "nağıllar...",
Yaylaqları yad əllərdə qalıbdı!

Dərdi böyük başı qarlı dağların,
Əhdə sadiq, etibarlı dağların...
Əzəmətli, ən vüqarlı dağların
Yaylaqları yad əllərdə qalıbdı!

Göyçəlinin Göyçə boyda dərdi var;
Nə loğman yetişir, nə təbibdi yar,
Oylağını əvəz etmir yad diyar,
Yaylaqları yad əllərdə qalıbdı,
Oylaqları yad əllərdə qalıbdı!

***09.04.2018. 23:20***

## ƏBƏDİ ZİRVƏDƏ QALDI ƏLƏSGƏR

"Əli bayramı"nda, mübarək gündə,
Baharda dünyaya gəldi Ələsgər.
"Zülfüqar" qüdrətli hikmətləriylə,
"Əlinin əsgəri" oldu Ələsgər!

Görən valeh oldu yaraşığına,
Quran nicat verdi Haqq aşığına.
Döndü haqq nuruna, haqq işığına,
Pir, ocaq, övliya,"quldu" Ələsgər.

Sevdi əhli-beyti(ə.s), Qadir Allahı(c.c),
İsa-Ruhullahı(ə.s), Xəlilullahı(ə.s)...
Heydəri-kərrarı(ə.s), Rəsulullahı(s.s)
Rəhbəri, öndəri qıldı Ələsgər.

Yaxın dostu sandı Həzrət Əlini(ə.s).
Vəsf etdi hər yerdə qızı, gəlini;
Gördüyü hər elin gözəllərini
Məhrəm: ana-bacı bildi Ələsgər.

Təqvalı dolandı, həyalı gəzdi,
Nankoru, namərdi həcv ilə əzdi!
Müşrikin əlini əlindən üzdü,
Şəri həyatından sildi Ələsgər.

Haqsızlıq etmədi, qəlbə dəymədi,
Xainə, zalıma boyun əymədi.
"Özgəyə xas olan libas geymədi",
Dərsini Xudadan aldı, Ələsgər!

Yalnız tək Tanrıya ibadət etdi;
Beşikdən məzara itaət etdi,
Axirət evinə şərəflə getdi,
Münafiq sanmasın, "öldü Ələsgər"!

Məşhur oldu Göyçə-Oğuz eliylə,
Sevildi əvəzsiz töhfələriylə.
Dildən-dilə düşən nəğmələriylə,
Qəlblərdə yurd-yuva saldı Ələsgər!

Hər an nəfəs aldı İmam Zamanla(ə.f),
Çəkildi sınağa "yaxşı-yamanla".
Ülvi məhəbbətlə, xalis imanla,
Hikmətdən yaranan "sal"dı Ələsgər!

Parlaq Günəş doğdu Göyçə-"Rəvana",
Yayıldı şöləsi Qarsa, İrana...
Tanrı töhfəsidi Böyük Turana,
Ölkədi, mahaldı, eldi Ələsgər!

Saldı eşq oduna bir nazlı dilbər,
Dili qələm oldu, sinəsi dəftər.
Köksünü eylədi eşqinə səngər,
Sazını sol əlli çaldı Ələsgər.

Qədim Ağkilsəni boyadı nura,
Əfsus, qovuşmadı sevdiyi yara.
Nakam məhəbbəti boyandı qara,
Dərdini saz ilə böldü Ələsgər.

Haqqa xidmətiylə zirvəyə qalxdı,
Sözün qüdrətiylə şimşəktək çaxdı.
Coşan şəlalətək qəlblərə axdı,
Hər sevən ürəyə doldu Ələsgər!

Məşəltək alışdı gənclik çağından,
Dərmədi qönçəni Vətən bağından.
İçdi Kəlbəcərin buz bulağından,
Yarını Yanşaqda buldu Ələsgər.

Xələl gətirmədi ustad adına,
Ürəkdən bağlandı öz ustadına.
Çevrildi o dahi söz ustadına,
Əbədi zirvədə qaldı Ələsgər!

Müxənnət şər dedi, sığındı Haqqa,
Üzə ağ olmadı, girmədi haqqa.
Heç zaman vermədi haqqı nahaqqa,
Hər yerdə Haqq ilə oldu Ələsgər!

Vəsf etdi dünyanı baxışlarıyla,
Bəzədi "SÖZ" adlı naxışlarıyla.
Tanrının aramsız yağışlarıyla,
Hər bahar kükrəyən seldi Ələsgər!

Tuş gəldi felinə dövrün-zamanın,
Çəkdi həsrətini Növrəs İmanın...
Çevrildi yarına çiskin, dumanın,
Buludtək boşaldı, doldu Ələsgər.

Yaranan hər kəsi Haqqa səslədi!
Hər doğulan günə ümid bəslədi,
Açılan sabahdan müjdə gözlədi,
İllərlə xəyala daldı Ələsgər.

Helmin dəryasında salmışdı lövbər,
Sərvəti tükənməz, hər sözü gövhər.
Sirli xəzinəsi dillərdə əzbər,
Qızıldan qiymətli ləldi Ələsgər!

Söylədi: Haqdandı, haqqın hesabı,
Cəhənnəm əzabı, qəbir əzabı...
Nə zaman bağlanır ömür kitabı;
Onu da əzəldən, bildi Ələsgər.

Hər il qədəm qoydu tər gülüstana,
"Əlvida" söylədi sərt zimistana...
...Çevirdi yönünü "Ərəbistana",
Yüz beşinci bahar, "soldu" Ələsgər.

Əzrail(ə.s) rəhm ilə canını aldı,
Oba yasa batdı, el yola saldı.
Özü köç eylədi, hikməti qaldı,
Çağlayan bulaqdı, göldü Ələsgər.

...Şəfaət dilədi "Əl-Mulk", "Ər-Rəhman",
Açıldı taybatay Cənnəti-Rəyyan.
Aldı ağuşuna Rövzeyi-Rizvan,
Müşk-ənbər ətirli güldü Ələsgər!

Haqqa xidmət etdi, xilaskar oldu,
Əhdə-anda sadiq bir əsgər oldu.
Ucaldı, Pir-Dədə Ələsgər oldu!
Xariqə yaradan əldi Ələsgər!

Bəşərin Günəşi doğdu cahana,
Şan-şöhrət gətirdi Azərbaycana.
Vətəni, torpağı sevən insana
Qarabağ, Muğandı, Mildi Ələsgər!

Şəninə nə qədər söz desək, azdı!
Adını əbədi tarixə yazdı.
Bəhrəli payızdı çiçəkli yazdı,
Güllü çəmənzardı, çöldü Ələsgər!

Everest dağıdı, zirvəsi qarlı,
Qartal əzəmətli, qartal vüqarlı!
Nəim cənnətidi tükənməz barlı,
Kövsərə dad verən baldı Ələsgər!

Camalı göyçəkdi, bayram ayıdı,
Novruz töhfəsidi, Tanrı payıdı.
Səlsəbil çayıdı, "Qarqar" çayıdı,
Göygöldü, Xəzərdi, Nildi Ələsgər!

Ucadan ucadır, "öz dağım" kimi,
Uludan uludur torpağım kimi.
Solmazdı, üç rəngli bayrağım kimi,
Yaşıldı, əlvandı, "al"dı Ələsgər!

Zirvələr fəth etdi Haqqın əliylə,
Seçildi sözüylə, əməlləriylə...
Kəndində ucalan daş heykəliylə,
Düşmənin bağrını dəldi Ələsgər!

...Səslədi pələsəng Göyçə elini,
İnlədib sazında "Göyçəgülü"nü.
Yararaq göy gözlü "Göyçə gölü"nü,
Cənnətə yol alan "sal"dı Ələsgər!

Bağrı qan ağlayan "Ağrıdağıdı",
Tək "Xarı bülbülsiz" Vətən bağıdı.
Müqəddəs ocağı sar oylağıdı,
"Lalənin bağrında xaldı" Ələsgər!

Ruhunu şad edən Uca Allahdı,
Açılan səhərdi, nurlu sabahdı.
Dədəni unutmaq böyük günahdı,
Hər halal nemətdən boldu Ələsgər!

Xoşbəxtdir, bağından bol məhsul dərən!
Qədrini bilənlər ər oğlu, ərən...
Sənət meydanında üzünü görən,
Sanardı, Rüstəmi-Zaldı Ələsgər!

O pir Haqq aşığı, o pir-ocaqdı!
Hikmətli kəlamı qucaq-qucaqdı,
Yaradan soyunu qoruyacaqdı,
Silinməz tarixdi, ildi Ələsgər!

Necəki dünya var, yaşayacaqdı,
Adını Dədə tək daşıyacaqdı.
Hər sözü könüllər oxşayacaqdı,
Həzin layla çalan dildi Ələsgər!

Ələsgər ocağı nurdu cahana!
Hərcayı sözümü çətin ki, qana!
Zər qızı-oğulu doğar zər ana!
Müqəddəs "torpaqdı- gildi" Ələsgər!

"Didərgin mahalı" elim-obamdı,
Məskəni yurdumdu, doğma yuvamdı.
Babamın babası - ulu babamdı,
Qəlbimdə ən incə teldi Ələsgər!

Anlamaq çətindi, yazmaq asandı,
Hər kəsin sınağı Sirat, Mizandı.
Hər işə hökm edən "yazı yazandı",
Əbədi döyünən "sol"du Ələsgər!

Car oldu aləmə Ələsgər adı,
Haqq idi həmdəmi, Alı – ustadı.
Simanı qorxutmaz cəhənnəm odu,
Cənnətə sualsız yoldu Ələsgər!

***29.03.2019. 23:02***

## İNSAN

Nahaq söz danışma, düşərsən aha,
İnsansan, dilini "dil" eylə, insan!
Şər işdən uzaq ol, batma günaha,
Etdiyin günahı bil, eylə, insan!

Dünyada nə var ki "söz"dən bahalı?!
Söylə, kim oyadır yatmış yığvalı?
Dünyada qalacaq dünyanın malı,
Dahanın dadını bal eylə, insan!

Hikmət dünyasıdır gördüyün "koma",
Yaradan can verər qurumuş tuma.
"Bəxtəvər" söyləmə səhrada quma,
Tapdığın "sərvəti" ləl eylə, insan!

Adına ləkədir yaxdığın qara,
Bədxah əməlinlə tay olma sara.
Cahillik eyləmə, düşərsən dara,
Arada nitqini lal eylə, insan!

Tamaşa eyləmə qurduğun tora,
Əməl dəftərinlə gedərsən gora.
Bilmirsən, məkanın olacaq hara?!
Pələsəng elini "EL" eylə, insan!

Bələdçi gərəkmi görünən dağa,
Yolun düşəcəkmi "ətirli bağa"?!
Ehtiyac duyarsan beş arşın ağa,
Qazan, tikanlığı "Gül" eylə, insan!

Sınaqlı ocaqdı dediyin "daxma",
Zəhərli dilinlə şad könlü yıxma...
Nəzərdən düşərsən, çox zilə çıxma,
Xəbislik odunu kül eylə, insan!

Qiyamət gününü saldınmı yada,
Sənin amalın nə fani dünyada,
Ölüm atlı olar, sənsə piyada,
Bir qətrə-damlanı göl eylə, insan!

Əfsus, insanlığı hər kəs bacarmır,
Yüz il ömür sürüb, hər kəs qocalmır,
Haqqın dərgahında hər kəs ucalmır,
Hər zaman şükrünü bol eylə, insan!

Çalış, rəğbət qazan öz əməlinlə,
Hər kəsə dəstək ol, "söz" əməlinlə,
Haqqa doğru ucal, düz əməlinlə,
Sualsız Cənnətə yol eylə, insan!

Sağalmaz yaradı "Göyçə yarası",
Yağıya qalıbdı laçın yuvası,
Hər zaman qəbuldu mömin duası,
Təqvanla gününü il eylə, insan!

Ələsgər zirvədi, uludan ulu,
Simaya "NUR" yetər, neyləyir pulu!?
Heç vaxt tamahının olma sən qulu,
Bacar, günahını qul eylə, insan!

***24.10.2017. 16:01***

## GÖYÇƏ GÖZƏLİ

“Bir gözəlin həsrətinə”,
Parçalanan dövlətinə,
Mətin, məğrur millətinə
Qurbandı Göyçə gözəli!

Bir sipərdi, “küləklərə”,
“Güldü”, arzu-diləklərə.
“Vətən” dərdli ürəklərə
Dərmandı Göyçə gözəli!

Nə nağıl, nə əfsanədi,
Dürrü-Nəcəf, dürdanədi,
“İlahidən nişanədi”,
“Sübhandı” Göyçə gözəli!

Ər igidin anasıdı,
Göyçəgölün sonasıdı.
Haqsızlığın aynasıdı,
Ürfandı  Göyçə gözəli!

Ər qeyrətli, ər qızları,
Xeyirxah bəşər qızları,
Birləşərsə el qızları
“Bir xandı” Göyçə gözəli!

Fəridəsi, Sonası var,
Xatirəsi, Siması var...
Firuzətək anası var,
Heyrandı  Göyçə gözəli!

Adı dillərdə dolaşan,
Ağır ellərdə dolaşan,
Göyçə adına yaraşan
Dastandı Göyçə gözəli!

Oğuz türkü, "azər" qızı,
Sehirləyir işvə-nazı.
Dindirəndə telli sazı,
Ozandı Göyçə gözəli!

Ələsgərdən qalan izdi,
Qəlbi saf sudan təmizdi.
Coşub-çağlayan dənizdi,
Ümmandı Göyçə gözəli!

Camalı "bayram ayı"dı,
Kövsər, Səlsəbil çayıdı.
Tanrının sevgi payıdı,
Canandı Göyçə gözəli!

Zinətidi baş tacının,
Piridi qardaş-bacının.
Təbibidi hər acının,
Loğmandı Göyçə gözəli!

Babalardan ilham alar,
Fərhad kimi külüng çalar.
"Nənələri örpək salar",
"Divandı" Göyçə gözəli!

Kirpiyiylə od götürən,
Nahaqqı haqqa gətirən.
Cənnətdən müjdə yetirən
Qılmandı Göyçə gözəli!

Sığındığı Haqq, Qurandı,
Həsrəti – Sahıb-Zamandı(ə.f),
Ədaləti  haqq-divandı,
Mizandı Göyçə gözəli!

Xoş sözüylə evlər tikən,
Könüllərdə güllər əkən,
Hər gülün nazını çəkən
Bağbandı Göyçə gözəli!

Vətənin həsrət bülbülü,
Şehli süsəni, sünbülü.
Çəmənzarın qönçə gülü-
Reyhandı Göyçə gözəli!

Hər ləçəyi təzə-tərdi,
Adı dillərdə əzbərdi.
Dahilər yurdu "AZƏRdi-
BAYCANdı" Göyçə gözəli!

Möcüzəsi xilqətidi,
Əmanəti – iffətidi.
Türk qızı, türk millətidi,
TURANDI  Göyçə gözəli!

Həm anadı, həm də qızdı,
Hər addımı bahar, yazdı.
Nə qədər vəsf etsəm, azdı,
"Rəyyandı" Göyçə gözəli!

Ocaq cəm etsə dəstini,
Alov məhv edər tüstünü.
Məxluqatın ən üstünü –
İnsandı, Göyçə gözəli!

"Qığılcımdan alov doğar!",
Nahaqqı beşikdə boğar.
Mərd sözü namərdi qovar,
Üsyandı  Göyçə gözəli!

Bu dünyanın dəyəri yox,
Savablar az, günahlar çox.
"Ey naməhrəm, Allahdan qorx",
Pünhandı, Göyçə gözəli!

Nə azaddı, nə də hürdü,
Hər hikməti inci, dürdü...
Elə ki haqsızlıq gördü,
Aslandı  Göyçə gözəli!

Neçə ildir, vətənsizdi,
Əldə çıraq Vətən gəzdi.
Göyçəli, həm Göyçəsizdi,
"Cahandı" Göyçə gözəli!

Üz tutulsa İrəvana,
Karvan qoşular sarvana...
Nə deyəsən bu dövrana?!
Zamandı Göyçə gözəli!

Hamı dönə öz elinə
Ay Sima, qəlbin sevinə!
Əməliylə Haqq evinə
Mehmandı  Göyçə gözəli!

***06.10.2018.   22:08***



## DÜŞƏRSƏN

Xəyal quşu boş başına qonubdu,
Gözlə, birdən "baxdafara düşərsən".
Göyçə dərdi damarlarda donubdu,
"Təhrif etmə" səbəbkara, düşərsən!

Meydan sulayırsan yolun sağıyla,
"Yaradırsan", qarasıyla-ağıyla.
Cox oynadın Ələsgər ocağıyla,
Bilinməyən dərd-azara düşərsən!

Öz evini özün yıxdın əlinlə...
Xəta etdin, sar tək ötən dilinlə.
Düşmən oldun mahalınla, elinlə,
Dərd əlindən ahu-zara düşərsən!

Addım başı kükrədirsən milləti,
“Məktublara” baş vurursan xəlvəti.
İtirmisən qazandığın hörməti,
Bulunmaz dərdinə cara, düşərsən!

Yalan ayaq tutub, necə yeriyir?!
"Təsvirlərin" qalaq-qalaq çürüyür.
"Kameralın" Cəhənnəmə sürüyür,
Şəkk gətirmə ustadlara, düşərsən!

Od qaladın bir ocağın odundan,
Utanmadın Atatürkün adından.
"Alim"liyi daha çıxar yadından,
Çəkilər adına qara, düşərsən!

Havalısan, fəxr edirsən işinlə,
Toplamışdın dırnağınla, dişinlə.
Seçilmişdin dərsindəki "beş"inlə,
Qulam olub, bazarlara düşərsən!

Günlərini sayacaqsan hər bazar,
Saxtakara arxalanan saxtakar.
Taleyindən  üz döndərən "baxdafar",
Tab gətirməz intizara, düşərsən!

Yağlı əldən yeməmisən şapalaq,
Haqq deyənə uzadırsan badalaq.
Döyər qapınızı cüzam, yatalaq,
Taun, vəba - hər azara düşərsən!

Yalvararsan ingilis, rus, almana,
Cürətin yox, əlin catmaz dərmana.
Az qalıbdı haqqındakı fərmana,
Parçalanıb, parça-para düşərsən!

Gətirdinmi, ömründə bir salavat?!
"Ölüm hökmü" sənə düşən mükafat!
Lələkləri bəlkə yuya Bata-bat,
Düşünməki, çəmənzara düşərsən!

Bizim köməyimiz Haqq, Yaradandı,
Onsuz da bu dünya sənə zindandı.
Tövbə et, Rəbbimiz bağışlayandı,
Yoxsa, Qiyamətdə zora düşərsən!

Gözdən düşmək "alim" ücün ağırdı,
Sanma qurbanların aciz, fağırdı.
Haqqı sevən Yaradanı çağırdı,
Yaşadanlar bilmir hara düşərsən!

Ələsgər zirvədi, Haqq aşığıdı,
El gözündə o, "Çalmalı" dağıdı.
Bundan belə laylaların ağıdı,
Köç edərsən, gordan-gora düşərsən!

İslam Ələsgərli yazıb doğrunu,
Hər tərəfdə gölə sancma qarğını.
Aşıq Talıb sənətinin "vurğunu",
Dərd verərsən nazlı yara, düşərsən!

Yazıqdı əyalın, gunahkar deyil,
Yəqin  ixtiyarsız – tələbkar deyil.
Özün günahkarsan, səbəbkar deyil,
Rişxənd etmə ixtiyara, düşərsən!

Qeyrətli qızıyam Azərbaycanın,
Mehmanı olmuşam "Ərəbistanın".
Dönər zimistana tər gülüstanın!
Həsrət qalıb hər bahara, düşərsən!

Təqvalının əcri Haqqın payıdı;
Nəim cənnətidi, Kövsər çayıdı.
Həmkarım elimdi, xala, dayıdı!
Yara vurma bəxtiyara, düşərsən!

Ləkə yaxma ustad sənətkarlara,
Hikmətimi catdir "vəfadarlara",
Macal vermə naşı "həvəskarlara",
Səcdə eylə xilaskara, düşərsən!

Sima Göyçəlini zaman sınadı,
Qaysaq tutan yaraları qanadı...
Nanəcib el oğlu, sözüm "sanadı",
Sirat körpüsündə dara duşərsən!

***31.07.2017.    15:39***

## BİRLƏŞİB ÇİÇƏKLƏN, AZƏRBAYCANIM

***(Prezident İlham Əliyevin televiziya vasitəsilə bir çıxışını dinləyərkən)***

Vətənim Ağkilsəm, Göyçə mahalım,
Dərbəndim, Təbrizim, ulu Borçalım.
Vedi, Zəngəzurum, "hürr Ağrı dağım",
Laçın, Kəlbəcərim, can Qarabağım!
Birləşib çiçəklən, Azərbaycanım!

Həmişə əzəldin, əzəlləşirsən,
Əzəldən özəldin, özəlləşirsən.
Şükür, günü-gündən gözəlləşirsən,
Çiçəklən, hər zaman, gül, gülüstanım!
Birləşib çiçəklən, Azərbaycanım!

Tarixə yazılıb şanlı adımız,
Bizə müqəddəsdi şəhid andımız.
Adını doğrultsun Milli Ordumuz,
Milli Qəhrəmanım, Fəxri fərmanım!
Birləşib çiçəklən, Azərbaycanım!

Dözümlü, vüqarlı, safdır millətin,
Dövlətlər içində vardır hörmətin.
Qaynayır, tükənməz-bitməz sərvətin,
Ey mənim bəhərli, şanlı torpağım!
Birləşib çiçəklən, Azərbaycanım!

Halal tikəmizi kimlə bölmüşük,
İblisi şeytan yox, mələk bilmişik.
Azadlıq naminə şəhid vermişik,
“Qanlı qərənfil”di hər xiyabanım!
Birləşib çiçəklən, Azərbaycanım!

Səni neçə parça-tikə böldülər?!
Saxta tarixlərlə iz itirdilər...
Qoynuna mehman yox, düşmən gəldilər,
Ey azad Vətənim, doğma diyarım!
Birləşib çiçəklən, Azərbaycanım!

Bir yanda Təbrizim qübar bağlayır,
Bir yanda Borçalım sinə dağlayır.
“Göyçə gölüm” darda, hey qan ağlayır,
İnşallah, yazılsın “bütöv dastan”ım!
Birləşib çiçəklən, Azərbaycanım!

Qoynunda bəslədin əfi ilanı,
Zimistan etdilər tər gülüstanı.
Viranə qoydular gözəl cahanı,
Dilimiz söyləsin: “Böyük cahanım!”
Birləşib çiçəklən, Azərbaycanım!

İllərlə nankora rəğbət bəslədik,
Hər zaman barışa, sülhə səslədik.
Mənfur qonşulardan cavab gözlədik,
Ey, mənim sülhsevər, halal məkanım!
Birləşib çiçəklən, Azərbaycanım!

Saxtalaşıb Dərbənd, Şuşa qalası,
Qalıb boynubükük şəhid balası.
Layla yox, hey ağı deyir anası...
Ey şəhidlər yurdu, şahid məzarım!
Birləşib çiçəklən, Azərbaycanım!

Ağdamım, Xankəndim "söz guşəsi"di;
Cabbarın, Bülbülün, Xanın səsidi,
İnləyən bir "qərib" zənguləsidi:
"Kimlərə qalmısan, can, Qarabağım?!"
Birləşib çiçəklən, Azərbaycanım!

Yasını tutubdu "Qırxqız yaylağı",
Hər gün qan ağlayır "İsa bulağı".
Qızıl qan içində tərlan oylağı,
Al bizi qoynuna sən, Qarabağım!
Birləşib çiçəklən, Azərbaycanım!

Neçə cəngavərin söndü ocağı,
Hədəfə alındı ana qucağı.
Al qana boyandı körpə qundağı,
İmdada çağırır tənha Xocalım!
Birləşib çiçəklən, Azərbaycanım!

Oyansın "ATƏT"in susmuş vicdanı,
Gərək itirməsin kəsdiyi nanı!
Hər bir şəhidimin tökülən qanı,
Şəhidlik zirvəsi müqəddəs andım,
Birləşib çiçəklən, Azərbaycanım!

Yağıya qalıbdı qızıl mədənin,
Şəfalı "İstisu", şux Kəlbəcərin.
Vurublar köksündən ulu Göyçəmin,
Piyada yol açsın "Nəqşi-cahanım"!
Birləşib çiçəklən, Azərbaycanım!

Bizimçün əzizdi "ana qucağı";
Dədə Ələsgərin nurlu ocağı.
Kimsəsiz qalıbdı küncü-bucağı...
Allahım, qovuşdur, bitsin hicranım!
Birləşib çiçəklən, Azərbaycanım!

Baba Heydər təki atamın özü,
Diktəsi, gülüşü, qaməti, gözü...
Qaldı yaddaşlarda "hikmətli sözü",
Vaxtsız köç eylədi canımdan canım!
Birləşib çiçəklən, Azərbaycanım!

Zahiri, daxili çox bənzəriydi,
Söhbəti duzluydu, həm gözəliydi.
Atatək  qayğıkeş, bəxtəvəriydi,
Onsuz dayanıbdı saatım, anım!
Birləşib çiçəklən, Azərbaycanım!

Ata həsrətlilər məni anlayar,
"Ata, qurban olum!"- deyib, ağlayar.
"Ürəyi bütövlər" gülüb, qınayar...
Sükuta qərq olub vaxtım, zamanım!
Birləşib çiçəklən, Azərbaycanım!

"Həsrət"lə möhürlü qızıl zindanım,
Sarvansız yol gedir ömür karvanım.
Yazılıb tarixə necə ünvanım?!
Ağkilsə kəndimdi, Göyçə - mahalım!
Birləşib çiçəklən, Azərbaycanım!

Vətən həsrətinə dözmürəm daha,
Ümidlə baxıram nurlu sabaha,
Üzümü tuturam Qadir Allaha:
"O günü gözləyir bir hacıxanım,
Birləşib, çiçəklən, Azərbaycanım!"

Murada yetişsin cəm arzularım,
Yurduma qovuşsun qoy intizarım.
Əlimdə qələmim mənim cihadım.
Xoşbəxtəm, yolunda tökülsə qanım!
Birləşib çiçəklən, Azərbaycanım!

İnşallah, hamının üzü güləcək,
Müjdəli xəbəri Xudam verəcək.
Ürəkdən kədəri, qəmi siləcək,
Gerçəyə dönəcək xam xəyallarım!
Birləşib çiçəklən, Azərbaycanım!

Başını uca tut, ey Vətən oğlu,
Alnımız açıqdır, sözümüz doğru!
Yolumuz Haqq yolu, azadlıq yolu,
Daim dalğalansın uca bayrağım!
Birləşib çiçəklən, Azərbaycanım!

Rəbbimin rizası bizi izləyir,
"Qələbə" nidası bizi gözləyir.
Simanın ricası sizi səsləyir:
"İlham Heydər oğlu, Mehriban xanım!
Toplayın, cəm olsun Azərbaycanım!"

***Moskva şəhəri.***
***12.06.2017. 13:00***

## SƏNƏ SIĞINMIŞIQ, SƏNƏ, İLAHİ

Sənsən möminlərin ümid, pənahı,
Sənə sığınmışıq, sənə, İlahi!
Qul etdi insanı nəfsi, tamahı,
Sənə sığınmışıq, sənə, İlahi!

İmansız əlində qalmışıq naçar,
Amansız bir dərdə olmuşuq düçar.
Bağlı qapıları Haqq əli açar,
Sənə sığınmışıq, sənə, İlahi!

Dünyanı lərzəyə salıbdı "taclı",
"Allahlıq eyləyir" bütpərəst, xaçlı...
Dərgaha əl açıb hər "uzunsaçlı",
Sənə sığınmışıq, sənə, İlahi!

Səni and verirəm uca adına,
Darda olanların yetiş dadına.
Üz tutub göylərin yeddi qatına,
Sənə sığınmışıq, sənə, İlahi!

Qoru bu bəladan bütün milləti,
Qoru dərd-bəladan bütün ümməti.
Qoru hər bəladan bəşəriyyəti,
Sənə sığınmışıq, sənə, İlahi!

Bəlanın özü yox, sonluğu dəhşət,
Cəzası amansız, qaydaları sərt.
Kafirə, zalıma sən vermə fürsət,
Sənə sığınmışıq, sənə, İlahi!

"Kimliyi" qədimdi, ünvanı təzə,
Köç edir əllərdən ağıza, gözə...
Günlərdi  gecəni qatıb gündüzə,
Sənə sığınmışıq, sənə, İlahi!

Şəfa ver, bu bəla tapsa hər kəsi;
Yurd salır, kimin var zəif nöqtəsi...
"Həyat fəlsəfəsi mason diktəsi",
Sənə sığınmışıq, sənə, İlahi!

Şəfa ver, solmasın körpə-fidanlar,
Şəfa ver, sağalsın ahıl, cavanlar...
Hər an yaşansa da qorxulu anlar,
Sənə sığınmışıq, sənə, İlahi!

Həkim də, "hakim" də tabedi əmrə,
Hər günü yaşamaq yazılıb ömrə,
Məzluma rüsxət ver, sur vermə "Şimrə",
Sənə sığınmışıq, sənə, İlahi!

Həkimin xəstəni sağaltması şərt,
Dilində dualar, əlində şəfqət.
Üzünü görməyə qalmışıq həsrət...
Sənə sığınmışıq, sənə, İlahi!

Allahım, hifz elə Ruslan həkimi,
Qoru bədnəzərdən loğman-həkimi.
Sənsən kainatın adil hakimi,
Sənə sığınmışıq, sənə, İlahi!

Rəhmət də səndədi, şəfa da səndə,
Səcdənə düşübdü günahkar bəndə.
Rəhm elə, ağ üzlər qaralan gündə,
Sənə sığınmışıq, sənə, İlahi!

"Günahsız" olsaq da, günahımız çox,
Qorxuruq, hədəfə tuşlananda ox.
Bəla hardan gəldi? - xəbərimiz yox,
Sənə sığınmışıq, sənə, İlahi!

Hələlik bu işin görünmür sonu,
Allahsız ram etmək çətindir, onu.
Bilmirik, sınaqdı, iblis oyunu,
Sənə sığınmışıq, sənə, İlahi!

Hər tərəf mübtəla olub bu dərdə,
Zəvvar təvaf etmir müqəddəs pirdə.
Bu işə şahiddi göylər də, yer də,
Sənə sığınmışıq, sənə, İlahi!

Kəbəyə cəm etdin əbabilləri,
Hökmün dayandırar axan selləri!
Qoyma, pirə dəysin xain əlləri,
Sənə sığınmışıq, sənə, İlahi!

Doğru yola yönəlt yolun azanı,
Oyat, səcdə qılsın hər Sübh azanı.
Xatırlat Məhşəri, Sirat, Mizanı...
Sənə sığınmışıq, sənə, İlahi!

İman ver insana, uymasın şərə,
Haqqa boyun əysin gündə beş kərə.
Yalnız savabları düşsün dəftərə,
Sənə sığınmışıq, sənə, İlahi!

Saxla pənahında bacı, qardaşı,
Qıyma, tənha qalsın ömür yoldaşı.
Analar tökməsin acı göz yaşı,
Sənə sığınmışıq, sənə, İlahi!

Xiffətdən solmasın nənə-babalar,
Böyüksüz qalmasın ellər, obalar.
Heç zaman sönməsin yanar sobalar,
Sənə sığınmışıq, sənə, İlahi!

Övlad acısını yaşatma bizə,
Kərəm sahibisən, göstər möcüzə.
Qoy ömür karvanı yetişsin yüzə,
Sənə sığınmışıq, sənə, İlahi!

Qoru dünyamızı dərdi-bəladan,
Üstünə nur yağdır ərşi-əladan.
Bizə müjdə yetir "Kərbübəladan"!
Sənə sığınmışıq, sənə, İlahi!

Dünya qan ağlayır aclıq əlindən,
Acı fəryad qopur körpə dilindən!
Şeytan fitnəsindən, insan felindən
Sənə sığınmışıq, sənə, İlahi!

Dərdi yox, milyonlar üstə yatanın,
Yatıbdı vicdanı "əppək satanın".
Yol vermə qüruru sınsın atanın,
Sənə sığınmışıq, sənə, İlahi!

Haqsızlıq əlindən çox qarınlar ac,
Sağ gözü sol gözə eyləmə möhtac.
Bütün qapıları üzümüzə aç,
Sənə sığınmışıq sənə, İlahi!

İnsaf ver, oyunla baş qatanlara,
İnsaf ver, oyunda zər tutanlara.
İnsaf ver, qonşusu ac yatanlara,
Sənə sığınmışıq, sənə, İlahi!

İllərdi gözümüz yollarda qalıb,
Məhəmməd ümməti xəyala dalıb,
Zəmanə həyəcan təbili çalıb,
Sənə sığınmışıq, sənə, İlahi!

Qalmışıq ağanın intizarında...
Səbri tükənibdi ruzigarın da.
Nazil et müjdəni Od Diyarında,
Sənə sığınmışıq, sənə, İlahi!

Bizi azad elə günah yükündən,
Ruhumuz don geysin "sümurğ tükündən".
Dəyiş bu qurğunu, dəyiş kökündən!
Sənə sığınmışıq, sənə, İlahi!

Simanı sınağa çəkir imanı,
Seçir bir-birindən yaxşı, yamanı...
Nə olar, aşkar et Sahib-Zamanı(ə.f),
Sənə sığınmışıq, sənə, İlahi!
Sənə sığınmışıq, sənə, İlahi!

***27.03.2020. 06:33***



# EL ÜÇÜN GƏLMİŞDİN SƏN BU HƏYATA



***Atam Məmmədov Azad – Əşrəf Bəylər oğlunun əziz xatirəsinə ithaf edirəm.***

Dost-qohum yolunda canını qoydun,
Bu fani dünyadan sən nə tez doydun?!
O pünhan dərdini de, necə duydun,
Yarımçıq ömrünə qurbanam, ata!
El üçün gəlmişdin, sən bu həyata?

Dedilər: bilinməz dərdi nə çoxdu,
Yarası ağırdı, məlhəmi yoxdu.
Hamıdan sənin ki qohumun çoxdu...
Şəfasız dərdinə dərmanam, ata!
El üçün gəlmişdin sən bu həyata?

Necə xoşbəxt sanım indi özümü,
Səndən öyrənərdim səbri-dözümü.
Qələmə deyirəm ürək sözümü...
Bağışla, "dilimlə düşmanam", ata,
El üçün gəlmişdin sən bu həyata?

Dağda itirdiyim gövhərim, ləlim,
Səni ziyarətə de, necə gəlim?
Soyuq məzarına çatmayır əlim,
Ruhumla ruhuna mehmanam, ata,
El üçün gəlmişdin sən bu həyata?

Bilməzdim bu qədər bağlıyam sənə,
Borcluyam ömürdən gedən hər günə...
Yaraşıq verərdin toya-düyünə,
Elin məclisindən doymazdın, ata,
El üçün gəlmişdin sən bu həyata!

Ömrünü sən bizə bəxş edib, getdin,
Bütün sevənləri pərişan etdin.
Sən təkcə bizdən yox, sən eldən getdin...
Kimsəni köməksiz qoymazdın ata,
El üçün gəlmişdin sən bu həyata!

Vədəsiz yetişdi ölüm xəbərin,
Anidən başladı uzaq səfərin.
Açılan sabahın, doğan səhərin,
Parlaq Günəşindən doymadın, ata,
El üçün gəlmişdin sən bu həyata?!

Allahı sevirdin, imanlı idin,
Açılan səhərə gümanlı idin,
Bəs nədən belə az zamanlı idin?
Qocalıb günləri saymadın, ata,
El üçün gəlmişdin sən bu həyata?

Halal qazanmışdın dövlət-varını,
De, kimə tapşırdın altmış arını,
O ata həsrətli balalarını
Narahat etməyə qıymadın, ata..?
El üçün gəlmişdin sən bu həyata!?

Əvəzsiz olsa da Ana qucağı,
Hər yerdən əzizdir ata ocağı!
Zəhmətlə alışan neçə ocağı
Nifrətlə sönməyə qoymadın, ata,
El üçün gəlmişdin sən bu həyata!?

Hərdən düşünürdüm görəsən nədən,
Çox cavan düşmüşdü saçlarına dən.
El-oba dərdiymiş bağrını didən...
Kimsənin sirrini yaymadın, ata,
El üçün gəlmişdin sən bu həyata!

Vaxtsız gedişinlə eli yandırdın,
Sonası oxlanmış gölü yandırdın,
Şirin layla tutan dili yandırdın,
Atalar atası olmadın, ata...
El üçün gəlmişdin sən bu həyata?

Anamın əbədi həyat yoldaşı,
Nənəmin ən əziz oğlu-qardaşı,
Bibimin istəkli könül sirdaşı,
Kimsəyə biganə qalmadın, ata,
El üçün gəlmişdin sən bu həyata!

***

Köksünə dağ çəkdin gəlin anamın,
Əsgəri-xidmətdə olan balanın...
Nakam ömrü gülləyə tuş olanın -
Bəylərin* dərdinə dözmədin, ata!
El üçün gəlmişdin sən bu həyata!?

Vətən aşiqiydin, Vətən sevdalı,
Gözəl ziyalıydın, parlaq dünyalı,
Yaylağın olardı uca "Çalmalı",
Doyunca qoynunda gəzmədin, ata,
El uçün gəlmişdin sən bu həyata!

Tarixdə iz qoydu çəkdiyin zəhmət,
Xeyirxah işinlə qazandın hörmət,
Müəllim adına gətirdin şöhrət,
Şərəfli işindən bezmədin, ata,
El üçün gəlmişdin sən bu həyata!

***

Ərköyün böyütdün altı balanı,
Türfə saxlayırdın qoca ananı.
Göynəyib, səninçün ağlar qalanın-
Anamın başının tacıydın, ata...
El üçün gəlmişdin sən bu həyata?

Adını kim çəksə, rəhmətlə anır,
Tanıyan, özünü bəxtəvər sanır.
Allaha min şükür, çırağın yanır!
Sən ocaq daşının tacıydın, ata,
El üçün gəlmişdin sən bu həyata!

***

Təbəssüm varıydı nurlu üzündə,
Təsəlli varıydı hər bir sözündə,
Dünya yerləşirdi mavi gözündə,
Sənin tək doğulmur hər insan, ata,
El üçün gəlmişdin sən bu həyata!

Bağrını dəlirdi Göyçə həsrəti,
Hər yerdə çəkirdin Vətən qeyrəti,
Öz doğman sanırdın bütün milləti,
Hər kəsə təbibdin, həm loğman, ata,
El üçün gəlmişdin sən bu həyata!

Bir vaxtlar daşıdın dağa Aranı,
Əməyin mat qoydu dayın İmanı.
Bağında gəzirdi ocaq ilanı,
Həm "bostançı" idin, həm bağban, ata,
El üçün gəlmişdin sən bu həyata!

Uşaqla uşaqdın, böyüklə böyük,
Millətin dərdiydi sənə ağır yük,
Bax, indi itirdik səni ömürlük...
Daha yox qayğıkeş, mehriban ata,
El üçün gəlmişdin sən bu həyata!?

Görmədim sənintək əmi, nə dayı,
Hər kəslə bölərdin yediyin payı...
Ömrün tamam oldu soyuq qış ayı,
Yazı məğlub etdi zimistan, ata,
El üçün gəlmişdin sən bu həyata?!

Gül-çiçək qoxsa da Vətənin ətri,
Heç nəyə bənzəmir atanın ətri.
Cənnətin ətridi ananın ətri.
Allahın nuruna qovuşan ata,
El üçün gəlmişdin sən bu həyata?

Hər zaman hər yerdə xoş rəftar oldun,
Qohuma-qonşuya tərəfdar oldun,
El-oba dərdinə giriftar oldun,
Həmişə el üçün çalışan ata,
El üçün gəlmişdin sən bu həyata!

Dilindən düşməzdi "inşallah" sözü,
Sənlə alışardı ocağın közü...
Bəs nədən tutmadın verdiyin sözü,
Hər gecə göylərdə sayrışan ata,
El üçün gəlmişdin sən bu həyata?

Qürbətdə burnumun ucu göynəyir,
İncidir bağrımı acı, göynəyir...
Vətəndə qardaşım-bacım göynəyir,
Xiffətdən halım çox pərişan, ata…
El üçün gəlmişdin sən bu həyata?

Artıq yoxluğuna dözə bilmirəm,
Atəşə dönmüşəm közə, bilmirəm?
Müşkülə düşmüşəm, çözə bilmirəm,
Hicranın odundan bağrım qan, ata,
El üçün gəlmişdin sən bu həyata?

Şirin yuxularım ərşə çəkilib,
Günlərim ömrümə qənim kəsilib.
Simayam, qamətim vaxtsız bükülüb,
Qoydun yaman günə bizi, can, ata,
El üçün gəlmişdin sən bu həyata?

***şəhid, Məmmədov Bəylər Eldar oğlu**

***Moskva, 21.01.1996***

## AY SİMAM

***(Anam Firuzə xanımın mənə həsr etdiyi şeir)***



***Firuzə (Bisavad) İslamqızı Ələsgərli***
***Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü***

Neçə müddət qərq olmuşdum tufana,
Batmışdı dəryada gəmim, ay Simam.
Səksən beşdə car çəkildi cahana,
Verdi bəhrəsini zəmim, ay Simam!

Açılan sabahım, sökülən danım,
Saatım, dəqiqəm, saniyəm, anım.
Damarımda axan qaynar, saf qanım,
Sadiq məhəbbətim mənim, ay Simam!

Sənə fərq qoymuram qardaş-bacıdan,
Qorxuram Allahdan, ağrı-acıdan.
Ucaldan yaradıb səni ucadan,
Yerim, göyüm, asimanım, ay Simam!

Parlaq Günəşimsən, doğan Ayımsan,
Tanrıdan verilmiş dadlı payımsan.
Möcuzəylə çıxan Zəm-zəm suyumsan,
Kəbəm, Qibləm, din-imanım, ay Simam!

Mövlam özü üstünüzdə yar olsun,
Yarın müdam başınızda var olsun.
Türfə balaların bəxtiyar olsun,
Xanımlar xanımı, xanım, ay Simam!

Bisavad Firuzə başı bəlalı,
Əksilmir sərindən heç qalmaqalı.
Layiq deyil deyəm, dünyanın malı,
Sənə qurban özcə canım, ay Simam!

*Firuzə(Bisavad) İslamqızı Ələsgərli*
*Gəncə şəhəri*
*30.03.2018*

# BİR BAYRAĞIN ALTINDA

Parlasın bəxt aynası
"Al bayrağın altında!"
Birləşsin Türk Dünyası,
Bir bayrağın altında!

Səmadan nur ələnsin,
Qarış-qarış çilənsin.
Torpaq nura bələnsin,
Bir bayrağın altında!

"Şərin" boynu burulsun,
Qanlı sular durulsun...
"Haqqın taxtı qurulsun"
Bir bayrağın altında!

Sönməz atəşim, odum;
Yaşasın Milli Ordum!
Hey ulasın Bozqurdum,
Bir bayrağın altında!

Bəzəsin Murovdağı,
Azərbaycan bayrağı!
Öpək Ana torpağı,
Bir bayrağın altında!

Xalq Tanrıdan güc alsın,
Dostluq körpüsü salsın,
Ədalət zəfər çalsın,
Bir bayrağın altında!

Xar olsun düşmən-yağı,
Hürr olsun Ağrıdağı,
Seyr edək Qarabağı,
Bir bayrağın altında!

Əldə müqəddəs Quran,
Dildə "Bismillah..." hər an.
Qurulsun böyük Turan,
Bir bayrağın altında!

Hamı versin əl-ələ,
Dolaşaq eldən-elə,
Üz tutaq Göyçəgölə,
Bir bayrağın altında!

Yurda oğullar gərək,
Yahya Azəroğlutək,
Xəyallar olsun gerçək,
Bir bayrağın altında!

Sima, arzun çin olsun,
Bir sevincin min olsun!
“Sərçə” “göyərçin” olsun,
Bir bayrağın altında!

***11.10.2019. 19:47***

## ƏZƏLDƏN TÜRK QIZI TÜRKƏM

Nə “türkçüyəm”, nə “Turançı”,
Nə “dağlıyam”, nə “arançı”,
Nə asiyəm, nə üsyançı...
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Bir pöhrəyəm Oğuz boylu,
Hətəmxan, Talıbxan soylu,
Əcdadım o tay, bu taylı...
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Dinim İslam, millətim türk,
Əzmim hicab, qeyrətim - börk,
Əlif qəddim yağıya görk,
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Müsəlmanam, təmiz qanlı,
Saf diləkli, pak vicdanlı...
Olsam da “azərbaycanlı”,
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Anam torpaq, atam oddu,
Şöhrət hissi mənə yaddı.
Var-dövlətim, təmiz addı,
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Ata yurdum, ulu Göyçə,
Ana yurdum - qədim Gəncə,
Hər yer Vətənimdir, məncə...
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Yol göstərir hər vaxt, hər an,
Tövrat, Zəbur, İncil, Quran.
Qurulacaq Böyük Turan,
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Xiffət çəkər güli-qönçə,
Açılar, bahar gəlincə...
"Qığılcımam", qəlbi incə,
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

Azad doğulsa da insan,
Adam olmaq deyil asan.
Qopsa tufan, töksə leysan,
Əzəldən türk qızı, türkəm!
Allahımdan razı türkəm!

***06.01.2020. 14:53***

## MÜQƏDDƏS OCAĞIN KÖZÜYƏM, ANA

***(Anam Firuzə Ələsgərlinin şeirinə cavab)***

Sən coşub-çağlayan dağ şəlaləsi,
Mən  o şəlalənin səsiyəm, ANA!
Sən uca zirvənin büllur çeşməsi,
Mənsə o çeşmənin gözüyəm, ANA!

İlk kəlməm, ilk sözüm anam- birincim,
Mənə həyat verən nəşəm, sevincim,
Qiymətli xəzinəm, FİRUZƏM, incim,
"Talıbxan nanı"nın duzuyam, ANA!

Odlu nəfəsisən ustadlarımın,
Şair nəvəsisən əcdadlarımın.
Gücü, qüdrətisən qanadlarımın,
Hər iki qanadın iziyəm, ANA!

Həm atam, həm anam, həm varlığımsan,
Əzmim, asayişim, azadlığımsan.
Zirvəm, əzəmətim, ucalığımsan,
Mənsə, o zirvənin buzuyam, ANA!

Dərsimi alıram dahi ustaddan,
Qığılcım od alar parlayan oddan.
"Sönməyən Günəşim" çıxarmı yaddan,
Müqəddəs ocağın közüyəm, ANA!

Vətənin "oğluyam", qürbətin qızı;
Alnıma yazılıb belə bir yazı...
ƏLƏSGƏR babamın sədəfli sazı,
Ən şirin söhbəti, sözüyəm, ANA!

Tanrıdan payındı altı tər qönçə,
Sən seçə bilmirsən, mən seçim necə?!
Sizə duaçıyam hər gündüz-gecə,
Açılan sabahın üzüyəm, ANA!

Cənnətdi, hər yanı səntək  əşrəfin,
Ən böyük töhfəmdi şanın-şərəfin.
Vəfalı yarının – AZAD-Əşrəfin,
Əmanət qoyduğu üzüyəm, ANA!

Parlaq Günəşisən sökülən danın,
Yanar çırağısan bir xanimanın!
Müqəddəs adısan Səfa-Mərvanın,
Mənsə, o dağların düzüyəm, ANA!

Nurlu hövzəsisən qaynar quyunun,
"Həcər ana"sısan Zəm-Zəm suyunun.
Ərəbzəngisisən Oğuz boyunun,
Hətəmxan nəslinin qızıyam, ANA!

Yağıya qalıbdı Göyçəm - oylağım,
Düşmən tapdağında "Çalmalı" dağım.
Vətən həsrətiylə alışır bağrım,
Elatdan ayrılan quzuyam, ANA!

Halal süfrəsiyəm halal nemətin,
Şirin meyvəsiyəm saf məhəbbətin.
Məcnun-Leylisiyəm sözün, sənətin,
Göyçəli Simanın özüyəm, ANA!

***31.03.2018. 02:11***

## ŞƏHİDİM

***("20 yanvar" şəhidi Ülvi Bünyadzadənin əziz xatirəsinə ithaf edirəm.)***

Azadlıq naminə canından keçdin,
Ölməzlik camının şərbətin içdin.
Üçrəngli bayrağı sən kəfən seçdin,
Qönçətək açmamış, solan şəhidim.

İgid, sipər oldun Ana Vətənə,
Gecə sinə gərdin yağı-düşmənə.
Necə vida etdin tər bənövşənə?!
Hicran nəğməsini çalan şəhidim.

Candan əziz tutdun Azərbaycanı,
Haqqa qurban verdin sən şirin canı.
Saf, müqəddəs andın gəzdi hər yanı,
Haqq ilə sirrini bölən şəhidim.

Əyninə geymədin bəy libasını,
Doğmalar duymadı toy sədasını.
Bütöv Azərbaycan tutdu yasını,
Cənnətdə kamını alan şəhidim.

Ey, Ulu Göyçəmin şəhid balası!
Olmadı qismətin Məcnun sevdası.
Sevdin Vətənini, sevdin qisası...
Doğma yurd-yuvası talan şəhidim.

Bulaqtək qaynayıb, çağlayan Ülvi,
Sevən ürəkləri dağlayan Ülvi.
Şəhid-şair kimi parlayan Ülvi,
İzi tarixlərdə qalan şəhidim.

Qalmaz Qiyamətə məzlumun ahı,
Yaradan bol etsin nurlu sabahı.
Başımın üstündə Ələsgər ruhu,
Hər an imdadına gələn şəhidim.

Məqamın mübarək, ay Vətən oğlu,
Hər anın mübarək, ay Vətən oğlu.
Simanı həmkarın say, Vətən oğlu,
Gəzdiyi məqamı bulan şəhidim!

***20.01.2018. 18:55***

## ALTUN SARAYINI TİKDİN, MÜBARİZ

***(Milli Qəhrəman Mübariz İbrahimovun əziz xatirəsinə ithaf edirəm.)***

Yazıldı tarixə şərəfli adın,
Döyüş meydanında təkdin, Mübariz!
Ruhunu oxşayan uca göylərə,
Üç rəngli bayrağı çəkdin, Mübariz!

O gecə kül etdin neçə nadanı,
Əzmin, şücaətin gəzdi hər yanı.
Heyrətə gətirdin bütün dünyanı,
Namərd körpüsünü sökdün, Mübariz!

Sındın, əyilmədin heç vaxt, poladtək!
Cəngavər vücudun qoca palıdtək!
Yağının üstünə qara buludtək,
Çaxdın şimşək kimi, çökdün, Mübariz!

Sənə səcdə qılır gül də, çiçək də,
Sükuta qərq olub əsən külək də.
Gəzdin səni sevən hər bir ürəkdə,
Ölməzlik toxumu əkdin, Mübariz!

Əfsanə-nağıldı "Van Damm", "Tompo"lar,
Səninlə yaşadı "Rokki-Rembo"lar.
Çaqqal yuvasına yağdı bombalar,
Düşmənin belini bükdün, Mübariz!

Əzəmət qazandın qüdrətin ilə,
Sevildin, seçildin qeyrətin ilə.
Şəhidlik zirvəsi, Cənnətin ilə,
Altun sarayını tikdin, Mübariz!

Mövludun mübarək, Milli Qəhrəman!
Məqama ucaltdı Sahibi-Zaman,
Uca Cənabi-Haqq, Rəhimi-Rəhman.
Bizimçün, İslamdı tək din, Mübariz!

Əzəldən bağlıydın "öz sarvanına",
Tələsidin, yetişdin "köç karvanına".
Qovuşdun mir-seyid babalarına,
Gözünü sabaha dikdin, Mübariz!

Sorağın yayıldı, ellərdə gəzdi,
İsmin əzbər oldu, dillərdə gəzdi.
Məğrur, cəsur rəsmin əllərdə gəzdi,
Andını qəlblərə səpdin, Mübariz!

***07.02.2018. 19:42***

## QIZIM

***(Özəl gün hədiyyəsi)***

Nəzərdən saxlasın səni Yaradan,
Yanan çırağımsan, biləsən, qızım!
Özü hifz eləsin qorxu-qaradan,
Xudadan mətləbin alasan, qızım!

Neçə kitabələr yatır sinəndə,
Neçə alim gərək, neçə danəndə.
Səni vəsf eləyə yeri gələndə,
Tanrı bəxtəvəri olasan, qızım!

Kəlamın hikmətdi; dürr kəlməlisən,
Söhbətin müəmma, sirr kəlməlisən.
Zər qədrini bilən, zər kəlməlisən,
Haqqa bağlı, haqqın yolusan, qızım!

Elə cür meyvəsən, deyə bilmirəm,
Elə cür dadlısan, yeyə bilmirəm.
Üfürməyə belə qıya bilmirəm,
Bağçamın yeganə gülüsən, qızım!

"Qığılcım"san, od götürdün ocaqdan,
Qorxun yoxdu fırtınadan, sazaqdan.
Qürbətdəsən, hay verirsən uzaqdan,
Bütöv bir mahalın elisən, qızım!

Ana-bacısısan hər Göyçəlinin,
Namuslu-qeyrətli ər Göyçəlinin.
Ocaq qədri bilən Pir Göyçəlinin,
Kərəmli, səxalı əlisən, qızım!

Müqəddəsdi hər qarışı Vətənin!
Başı mudam qarlı "Dik pilləkən"in!
"Çalmalı","Dərəyurd", "Sümük tökənin*"
Hayqıran, kükrəyən selisən, qızım!

Yağılar əlində qalan Göyçənin,
Dövləti, sərvəti talan Göyçənin.
Neçə yol boşalıb, dolan Göyçənin,
Naz-qəmzəli Göyçə gölüsən, qızım!

Dillənmir qopuzu, çalınmır sazı,
Dikilib yol çəkir Göyçənin gözü.
Çatıbdı "Dədənin ikinci yüzü"!
Min cür nəğmə qoşan dilisən, qızım!

Hanı toy-düyünlü şülən məclisi,
Yayılmır dağlara zurnanın səsi.
Gəlmir qatarlaşan durnanın səsi,
Başının cıqqası, telisən, qızım!

---

***Sümük tökən- Sümük tökülən***

Yar-yoldaşın, balaların sağ olsun,
Evində gəlinin nur çıraq olsun.
Hər iki cahanda üzün ağ olsun,
Nə ki diləyin var, dilə sən, qızım!

O qədər xoş keçsin ayın, illərin,
Bəhrə versin bağ-bağatın, çöllərin.
Artsın, davam etsin gənc nəsillərin,
Kötücə laylası çalasan, qızım!

Bir dəfinə varmı cahan içində ,
Bir ayə qalıbmı Quran içində.
Bir ümman görmədim ümman içində,
Bircə baş vurmamış qalasan, qızım!

İllərdi bağlısan imana-dinə,
Getdiyin Kərbəla, Məkkə, Mədinə...
Şahlar şahı hər an çatsın dadına,
Sirli xəzinələr bulasan, qızım!

Əlçatmazsan, zirvələrdə durubsan,
Çox füsünkar gözəlliklər qurubsan.
Zaman tarixinə möhür vurubsan,
Dövrünün əşrəfi-ləlisən, qızım!

Ləhcən çox lətifdi, tuti dillisən,
Sima Azadqızı- Göyçə ellisən.
Arif anlar, bir kəlməndən bəllisən,
Yaşın körpə, özün ulusan, qızım!

Qardaş-bacıların küsməsin məndən,
Abı-hava, nəfəs alıram səndən.
Sanki, zənbur şirə çəkir çəməndən,
Kasan ləbaləbdi, dolusan, qızım!

Ərşdən enmiş insan donlu mələksən,
Hurisən, pərisən, tərlan-tüləksən.
Nəqqaşın mahirdi, gözəl-göyçəksən,
Allahın sevimli qulusan, qızım!

Duan yetərlidi Pirə-Məbədə,
Səhv salmaram, yanılmaram heç vədə.
Əzəldən söyləmiş Ələsgər dədə;
Desəm, hər elmidən halısan, qızım!

Kərəmkanı rəhm eyləyər bəşərə,
Qoymaz möhtac ola xeyiri şərə.
Olmasın heç zaman aciz-biçarə,
Firuzənin qanad-qolusan, qızım!

***Firuzə(Bisavad) İslamqızı Ələsgərli***
***Gəncə şəhəri***
***24.04.2020***

## TELLİ SAZIN HARAYI: HARDASAN

Sən gedəli günü qarə olmuşam,
Zülmətdə çürüyür canım, hardasan?
Qəm-qüssədən saralmışam, solmuşam,
Ərşə qalxıb ahu-zarım, hardasan?!

Beş aydır ki, həsrət çəkir gözlərim,
Günəş görmür, pas atıbdı sözlərim.
Taqətim yox, bükülübdü dizlərim,
Damarımda dondu qanım, hardasan?!

Toz basıb üstümü, solub köynəyim,
Haray çəkim, dərdin kimə söyləyim.
Sızım-sızım sızıldayım, göynəyim,
Alovsuz-tüstüsüz yandım, hardasan!?

Yatağımdı "kladovka", dam, dirək,
Həmkarımdı taxtabiti, hörümçək…
Qoydun məni yağılarla təkbətək,
Divan tutur gündə xanım, hardasan?!

Təzanə simlərə verir yaraşıq,
Kəmərim boynumda qalıb dolaşıq.
Zər qədrini zərgər bilər, ay aşıq!
Sənsən mənim din-imanım, hardasan?

Ərş-əlaya çatdı ünüm, gəlmədin,
Qibləyə çevirdim yönüm, gəlmədin.
Nə danışım, nə də dinim, gəlmədin,
Tək Simadır xilaskarım, hardasan?

***Moskva, 1998-ci il***



## GƏTİRMİŞƏM

*Sona Abbasəliqızı*

Çoxdan ürəyimdə bir ah bitibdi,
Qeyb olub cığırım,yolum itibdi.
Daha bu canımdan ruhum gedibdi,
Gözümdə çağlayan, sel gətirmişəm.

Daha baxammıram nurlu sabaha,
Göyçənin yanında batdım günaha.
Ürəyim açılmır, susubdur daha,
Sazımda qırılmış tel gətirmişəm.

İndi ağlamaqdan gözlərim şişib,
Ürəyim sızlayır, ciyərim bişib.
Göyçə arzularım xəzana düşüb,
Əlimdə saralmış gül gətirmişəm.

***Ulu Göyçəmizin Sonası, əziz və dəyərli bacım Sona xanım İsmayılovanın bir şeirini oxuduqdan sonra xitabən***

## GƏLSİN HƏR SƏHƏRİN XOŞ, SONA XANIM!

Göyçənin yarası sağalmaq bilmir,
Ötüb neçə payız, qış, Sona xanım.
Allahın izniylə bitsin bu həsrət,
Qovuşaq baharda kaş, Sona xanım!

Dağlara-daşlara amanın-ahın.
Güldürsün üzünü nurlu sabahın!
Qayıtsın canına didərgin ruhun,
Çağlayan çay kimi daş, Sona xanım!

Hicranın oduna alışıb-yanma,
Heç zaman özünü müqəssir sanma.
Gördüyün röyadan qəfil oyanma,
Gəlsin hər səhərin xoş, Sona xanım!

Sevinc göz yaşına qərq olsun gözün,
Bal ilə yoğrulsun söhbətin, sözün.
Ələsgər yurduna açılsın izin,
Sığal çək sazına, "coş", Sona xanım!

Yaz-yarat hər zaman Vətən eşqinə!
Müxənnət  nə bilir, Vətən eşqi nə?!
Sima hey alışır Vətən "eşqinə";
Olaydı Vətənə "daş", Sona xanım!

***20.06.2018.  01:21***

***Göyçə soylu, Göyçə uluslu şair ASƏF ORUCOĞLU yaradıcılığından.***

***Asəf Orucoğlu:***

## ÜÇ GÖZƏL ÖMRÜMDƏN HEY GƏLİB GEDİR

**Bağlama**

Üç gözəl ömrümdən hey gəlib gedir,
Üçünün də yaşamımda var yeri.
Üçü də ömrümdən pay alıb gedir,
Üçü də ilbəil qayıdır geri.

Doğma bacıdılar, üçəm deyillər,
Biri getmədikcə o biri gəlmir.
İkisin "göyüntü" çağırır dillər,
Üçüncünün sirrin bir kimsə bilmir.

Onların dostudur zil qara yellər,
Sevgiləri soyuqluqla qoşadır,
İkisin elə də sevməyir ellər,
Üçüncü dörd dəfə sevinc yaşadır.

Birinci qırxında köçünü yığır,
İkincisi onun yarı qatıdır.
Üçüncü otuzda canını yaxır,
Rəngləri gah açıq, gah da qatıdır.

Adların yaşadır qoca, qarılar,
Səsləri də bəzən qurd ulaması.
Əgər tapmasanız onda qar olar,
Fələyin hər işi, hər dolaması.



***Mərhum şair Asəf Qayanın "Üç gözəl ömrümdən hey gəlib gedir..."adlı bağlamasına cavab:***

## ÜÇ GÖZƏL - ÜÇ BACI, YAXUD ÜÇ QARDAŞ

Üç gözəl - üç bacı, yaxud üç qardaş,
Hər kəsin ömründən hey gəlib gedər.
Bir-birini sevən üç soyuq sirdaş,
Hər kəsin ömründən pay alıb gedər.

Dincəlib fələyin qul bazarında,
Hər üçü ilbəil qayıdar geri.
Hərlənib-fırlanıb öz zamanında,
Üçü də ardıcıl sayar günləri.

Doğma da olsalar, bənzər deyillər,
İkisi çox sərtdi, biri dəyişkən.
"Böyük"lə olsa da, dost, qara yellər,
"Kiçik" daha çılğın, daha döyüşkən.

Olsa da ikisi "düşməni" elin,
Üçüncü əzizdi qıza-gəlinə.
Gəlişi xoş olsun hər üç gözəlin,
Şad xəbər gətirsin "Oğuz elinə"!

Böyük çox böyükdü, "ortancıl" kiçik,
Üçüncünün dörd əntiqə qızı var...
Onlar gəlcək sevinər böyük-kiçik,
Xonçasında "göy çəmən", "qırmızı" var.

Onlar birləşdirər türk ellərini,
Böyük gəlişiylə sevinc gətirər.
Kiçik coşdursa da bəd yellərini,
Üçüncü xoş günə müjdə yetirər.

Doxsan gün həsrətlə gözləsək də biz,
Üçü də aparar xoş günə sarı.
Soyuq da olsalar, tutarıq əziz,
Hər üçü sevdirər qışı, baharı.

Böyüyün ilk günü əziz "Gündoğan",
Qırxını saymamış "Əlvida!" deməz.
Kiçiyin həmdəmi çovğun, qar-boran,
İyirmi olmamış aradan getməz.

Üçüncü otuzda mülayimləşər,
Gözəl xatırlayar hamı o anı…
Gündüzlə gecəmiz bərabərləşər,
Hər kəs bol eyləyər o an duanı.

Onların ardınca "Yeni Gün" başlar,
Hər evdə-ocaqda toy-bayram olar.
Bir yerə yığılar dostlar-tanışlar,
Bu adət-ənənə hər bayram olar.

“O gündə” bəxş etmiş Haqq Ələsgəri,
Onunla yağdırmış nuru Göyçəyə.
Misli görünməmiş sinədəftəri,
Yaradan pay vermiş Ulu Göyçəyə.

Hikmət dəryası yox, hər Ələsgərdə,
Dərsini Xudadan o pünhan alıb.
Neçə sirlər yatır hər üç gözəldə,
Daha nələr olub, o pünhan qalıb.

Gedər ömrümüzdən üç gözəl bacı,
Heyatda hər kəsin ömür payı var.
Xoşbəxtlik hər kəsə olsun baş tacı,
Hər kəsin yazılan ömür sayı var.

Aparsaq şərrindən Allaha pənah,
Hər üçünü qarşılamaq gözəldi.
Doğrunu yazmasam edərəm günah,
Zimistandan yaza çıxmaq gözəldi.

Bu günlər bəxşişdi bizə Xudadan,
Hər fəslin öz günü, öz ayı xoşdu.
Əgər soruşsanız, qərib Simadan,
Göyçənin"Çilləsi”, "Boz ayı" xoşdu!

***27.12.2017. 00:20***

# AŞIQ ƏLƏSGƏR
# (1821 - 1926)
# BU GÜNLƏRİ BİR HİKMƏTƏ TUŞ OLDUM
# Qıfılbənd

Bu günləri bir hikmətə tuş oldum,
Adı-sanı hər aləmdə deyilir.
Şəriət ətini haram buyurub,
Halal olan sümükləri yeyilir.

Müdam ayağından kəsilməz abı,
Abını kəsəndə heç olmaz tabı.
Çox əziz yaradıb kərəm sahabı,
Toxmaq ilə təpəsinə döyülür.

Ələsgər ərz eylər, ariflər qana,
Üç ayda , dörd ayda o gəlir cana.
Lətifdi xörəyi, qarışır qana,
Dərmanı var, cəsədində yayılır.

## BU GÜNLƏRİ BİR NEMƏTƏ TUŞ OLDUM

***"Bu günləri bir hikmətə tuş oldum"***
***qıfılbəndinin açması***

Bu günləri bir nemətə tuş oldum,
Yeddi ədəd "Qul huvəllah" birində.
Baş havada, ayaq suda, can yerdə,
Özü zirvədədi, kökü dərində.

Döyülməsə, adı gəlməz üstünə,
Neçə nemət yoldaş olar dəstinə,
Cana gəlməz, hər kim dursa qəsdinə;
Ot-orman kök salar onun yerində.

Nə buğdadı, nə çəltikdi, nə darı...
Şəfasız bitkidən bal çəkməz arı!
Quranın surəsi, İxlasın varı,
Xudanın kərəmi onun sirrində.

Zamanı çatanda rahat dərilər...
Toy-düyündə təmtəraqla verilər,
"Xəstə" yesə, şəfa tapar, "dirilər",
Yararsızdı, saxlamasan sərində.

Odur hər ocaqda xörəklərə şah,
Bişərkən anılar tək - Qadir Allah!

Neçə il saxlasan sayılmaz günah,
Ehsanıdı övliyanın, pirin də...

Neçə növdü, çeşidləyib seçəndə,
Pay tutular, qızlar gəlin köçəndə.
Sadalasan, hər cür taam içində,
Çox ləzizdi südlüsü də, şirin də.

Bu işi bacarmaz işbilməz - naşı,
Ətrindən bilinər dəmləsən aşı.
Yanında verilsə "təndir lavaşı",
Kişmişi.., qaysısı yerli-yerində...

Bayramlarda süfrələrə düzülər,
Səxalı əl olsa, ləbdən süzülər.
Tamarzıya versən savab yazılar,
Nur saçar siması Göyün, Yerin də.

Özü qiymətlidi, "dad verən – baha",
Süfrəndə nə varsa, şükr et Allaha!
Ayaqlasan, yazılacaq günaha;
Axtarıb tapmazsan günün birində.

Mən belə vəsf etdim ismi pünhanı,
Car olsun cahana şöhrəti, şanı...

Min cür nemət bal etsə də dəhanı,
Neçə bərəkət var bunun "pirində".

Arif adam işarədən söz qanar,
Bir hikmətdə min neməti az sanar.
Haqdan gələn  Ələsgərtək haqq olar,
Haqqı sevən, qalar, sözün sehrində.

Kamil insan Yaradandan dərs alar,
Cahil insan yaranandan tərs olar.
Bu sözlərin çoxlarına dərs olar,
Sima, hər hikmətin cəmdi sərində!

***12.05.2018      12:43***



## AYRILMAZDIR KÖNÜL CANDAN,
## YAŞA, BÜTÖV AZƏRBAYCAN!

***(poema)***

Vurğunam Ana Yurduma,
Heyranam Milli Orduma,
Güvənirəm Bozqurduma,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Hər kəs bilir, yenilməzsən,
Yer üzündən silinməzsən,
Bölsələr də bölünməzsən!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Göz diksə də düşmən-yağı,
Kəsdirsə də solu, sağı,
Azad gördüm Murovdağı!
Ayrılmazdır könül candan,
Yaşa, Bütov Azərbaycan!

Yayılsın Azanın səsi,
Qarabağın şikəstəsi...
Qoy eşitsin Yer kürəsi!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Bu Qələbən yeni uğur,
Əsgərin od, xalqın məğrur,
Qığılcımdan alov doğur!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Payızda da açdı çiçək;
Xəyallarım oldu gerçək,
Murovdan Mincivanadək,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Ordu keçir "İlisudan",
Xəbər gəlir "İstisu"dan,
Düşmən çəkilir "Turşsu"dan,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Oğulların qurd ürəkli,
İgidlərin şir kürəkli,
Ocaqların duz-çörəkli,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Azad olmaq sənin haqqın,
Vətənisən neçə xalqın!
Düşmənisən "bircə xalqın".
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Göz nurundu Mingəçevir,
Nur saçarsan saysam bir-bir.
Neftçala, Şabran, Kürdəmir...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Nə gözəldi Şəki, Oğuz,
Qəhrəman şəhərin Tovuz.
"Doqquzda tükəndi otuz"!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

"Ballıqaya" oldu yalan,
Hədəf Goranboy, Naftalan,
Şəhid oldu neçə balan…
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Tərtər də qəhrəman şəhər,
Yaralandı axşam-səhər...
Məlhəmi oldu "ləl-gövhər",
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Ərlərin polad biləkli,
Qız-gəlinin xoş diləkli,
Hər kəsin əziz-istəkli,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Dahilər yurdu Şamaxı,
Heyranı olmuşam axı...
Oxu, şeyda bülbül, oxu!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Sevirəm Qusarı, Qaxı,
Dəyərini bilməz çoxu;
Oğulları bilməz qorxu!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Bir Azan çək Əsgəranda,
Səda versin Lənkəranda;
Eşidilsin "Cəmkəran"da,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Beyləqan, İmişli, Şirvan,
Masallı, Saatlı, Salyan,
Dahilər yurdudu hər yan!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

"Hacı yurdu" Hacıqabul;
"Hacı, "həcc"in olsun qəbul".
Rəvayəti belə məqbul,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Biləsuvar "od" yurdudu,
Astara şəhid yurdudu,
Yardımlı seyid yurdudu,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Bağışlasın Göyçay, Yevlax,
Ağstafa, Şəmkir, Qazax,
Qoynundan düşsəm də uzaq,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Söz yurdudu İsmayıllı,
Səması göy-mavi şallı,
Düzləri yaşıllı-allı...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Gədəbəy sanki cənnətdi,
Göygöl mənəvi sərvətdi,
Mənzərəsi qiyamətdi!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Hamı sevir Balakəni,
Quba, Xaçmaz, Siyəzəni.
Görməsəm də "Göyəzən"i,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Sumqayıta edir nazı,
Kəngərli, Qəbələ, Xızı,
Vəsf eləsin dağlar qızı,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Ağsu, Ağdaş, Sabirabad,
Ucar, Zərdab, Cəlilabad,
Qoy həmişə olsun abad!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Göz oxşayır Zaqatala,
Lerik ondan qalmır dala,
Gözəlləşir bala-bala,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Kaş baxmasın ürkək-ürkək
Şahbuz, Culfa, Şərur, Babək.
Sevin, Ordubad-Sədərək!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Oğuz yurdudu Nüvədi,
Bəy yurdudu Ağcabədi,
Xana qayıdır Xankəndi!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Azad olsun Ağdam, Şuşa,
Sevincimdən gəlim cuşa,
Şeir yazım qoşa-qoşa!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Yağıya vermə macalı,
Mənfurdu, cavan-qocalı!
İntizardadı Xocalı...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Əsirdi "İsa bulağı",
Qan-yaş tökür səhərçağı.
O yerlər türkün torpağı!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Abad görüm Xocavəndi,
Seyr edim Təbriz, Dərbəndi.
Könlüm istəyir Zərkəndi...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Azadlığa çıxsın Kərkük,
Qoy sevinsin uşaq-böyük.
O yerlərin sahibi türk!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Salam göndər Borçalıya,
Əlim çatsın "Çalmalı"ya,
El yığılsın "Alçalı"ya,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

İşğaldadı "Babam piri",
Qəlbimdədi onun yeri.
İllərimi saysam geri,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Boğaraq əfi ilanı,
Bağrına bas Zəngilanı!
Sevindir doğma balanı!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

El qovuşdu Cəbrayıla,
Bəlkə yatanlar ayıla.
Borcluyuq  Şah İsmayıla!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Kür coşğulu, Araz sərin,
Azad oldu Xudafərin!
Şəninə alqış, afərin,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Azad eylə Füzulini,
Yurda cəm eylə elini,
Qoy, düşmən çəksin əlini!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

İşğal altında Qubadlı;
"Ad günüm" yox toy-büsatlı,
Həsrətim var Vətən adlı...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Didərginə imdad eylə,
Sınıq könlü abad eylə,
Hər qarışı azad eylə,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Qoy hər kəsin gülsün üzü,
Nur ələsin Göyün üzü,
Çiçəklənsin "Cıdır düzü"!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Ərənlər yurdudu Laçın,
Daşı sərt, qayası yalçın.
Gözəldir Həkəri, Xaçın,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Xocalının dərdi mənim...
Turanın Bozqurdu mənim,
Ələsgərin yurdu mənim,
Ayrılmazdır könül candan!
Yaşa, Bütöv Azərbaycan!

Günəş doğdu Kəsəməndə,
Şəfəq saçdı Daşkəsəndə.
Min can vardı bir bədəndə...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Qərənfillər qoşa-qoşa,
Düzülməsin qara daşa...
Yaşa, Ana Yurdum, yaşa!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Azadlığı qanla yazdın,
Azərlə, Baycanla yazdın,
Sonu gözəl sonla yazdın,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Baxıb sabaha inamla,
Hörmət-izzət, ehtiramla,
Hamı fəxr edir İlhamla!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Yumruqtək birləşib xalqın,
Həm sevincli, həm də çılğın.
Qələbəsi elə dolğun…
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Qoy eşitsin Bağdad-Bəsrə...
Yeni tarix yazdın əsrə!
Bayrağı sanc "Qoşa Qəsrə",
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Möcüzədir göy Xəzərin,
Möhtəşəmdir "qara zərin",
Müqəddəsdir hər şəhərin,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Qibləgahım-Kəbəm mənim,
Mədinəm, həm Məkkəm mənim,
Çiçəklənən ölkəm mənim!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Sarılaraq bayrağına,
Baş qoyaraq torpağına,
Çıxım "Qırxqız" yaylağına,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Xəbər göndər İrəvana,
Ünün yetsin Rəvan xana...
Üz tutaq Gorus, Qafana!
Ayrılmazdır könül candan!
Yaşa, Bütöv Azərbaycan!

Səsin gəlsin Zəngəzurda,
Ayaq açaq doğma yurda!
Ayrılsa da "Qızıl Orda",
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Naxçıvana yolları aç,
Bağlı qalan qolları aç,
Böyük Turanda şəfəq saç,
Ayrılmazdır könül candan!
Yaşa Bütöv Azərbaycan!

Qurusun şərin qolları,
Manat basdırsın dolları,
Dünya tanısın "Şollar"ı!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Nə gözəldir Suqovuşan,
Sevincindən aşıb-daşan;
Ürəklə sədləri aşan!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Tezliklə bəzə Sərsəngi,
Əllərində gül çələngi.
"Suda sınsın su səhəngi".
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Xalqa qaytar Ağoğlanı,
Dostu, həm düşməni tanı.
Sevinsin Qarabağ xanı!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Qoşun yerit Ağdərəyə,
Tamaşa et mənzərəyə,
Elanı as "gen dərəyə":
"Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!"

"Sevan" qarışsın Tərtərə,
Zod birləşsin Kəlbəcərə!
Qovuşaydım Ələsgərə...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Ağkilsəm qan ağlasa da,
Ürəyimi dağlasa da,
Könlüm qübar bağlasa da,
Ayrılmazdır könül candan!
Yaşa, Bütöv Azərbaycan!

Pələsəngdi "Oğuz eli",
Dərd içində Göyçə gölü,
Nalə çəkir "Göyçəgülü",
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Bir haray çək Ana Kürdə,
Qisasın qalmasın yerdə!
Gözəlləşsin qədim Bərdə,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Nizaminin yurduna bax,
Şuşada şimşək kimi çax!
Qələbənlə qəlblərə ax,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

İnsan demə hər adama,
Üçrənglini sanc Ağdama,
Sorağı çatsın Vəndama,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Yaralıdı qədim Gəncə,
Fəryad edir "ulu Göyçə",
Sadaladım bircə-bircə,
Ayrılmazdır könül candan!
Yaşa, Bütöv Azərbaycan!

Varsa unutduğum kimsə,
Bağışlasın məni görsə,
Qulaq assın tək bu səsə,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Məğlub elə "hayastanı",
Şəninə qoşum dastanı;
Yeniləyim "Gülüstan"ı!
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Bayrağı sanc rayon-rayon,
Yerlə yeksan olsun "firon"!
Nur saçsın Bakı-Abşeron,
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Canı sağ olsun igidin,
Ruhu şad olsun şəhidin,
Polad, Mübariz, Fəridin...
Ayrılmazdır könül candan,
Yaşa, Bütöv Azərbaycan!

Sən Simanın baş tacısan,
Dərdlərinin əlacısan,
Şairlərin "meracısan",
Ayrılmazdır könül candan!
Yaşa, Bütöv Azərbaycan!

Yarat "Böyük Çin səddini",
Bərpa eylə sərhəddini,
Düşmənə göstər həddini!
Ayrılmasın könül candan,
Yaşa bütöv, Azərbaycan!
Yaşa, Bütöv Azərbaycan!

***05.10.2020. 23:01***

## TƏZƏDƏN DOĞUL, DÜNYA

Bu nə zaman, bu nə əsr,
Dövran olub nağıl, dünya.
Bilmirəm, kimdir müqəssir,
Yetən deyir: "dağıl, dünya!"

Fələyinmi çərxi dönüb?!
Yoxsa bəxt ulduzun sönüb?!
Hakimin cəllada dönüb,
Məcnun verir ağıl, dünya!

Bir zamanlar gövhər idin,
Zər-zibalı zərgər idin.
Baltək şirin, kövsər idin,
İlki şəkər, noğul dünya.

Yaşadığın nə çilədi,
Daşıdığın nə şəl ədi.
Sənə kim qarğış elədi;
"Qan göləndə boğul, dünya!"

Dağılmağa yoxdur haqqın,
Hökmünə tabesən Haqqın.
Məskənisən haqq-nahaqqın,
Həmdəmindi çuğul, dünya.

Hərcayı bilməz çəkini,
Geymisən günah kürkünü.
Gəzdirə bilməz yükünü,
Nə qız, nə də oğul, dünya!

Sima deyir: yaşamaqçün,
"Yeni gün"ə başlamaqçün,
İnsanlığı yaşatmaqçün,
Öl, təzədən doğul, dünya!
Ol təzədən oğul dünya!

***27.11.2018. 02:14***



## DALĞALANSIN DAİMA ULU TÜRKÜN BAYRAĞI

Keçsə zaman, ötsə il,
Bu hal dəyişən deyil!
Ey türk oğlu, bunu bil,
Türkdü türkün dayağı,
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Ey türk qızı, türk oğlu,
Kökün uludan ulu...
Tutduğun yol Haqq yolu,
Əzəmətin "Tur dağı"!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Qüvvət olsun qolunda,
Sağında, həm solunda.
İşıq saçsın yolunda
Haqqın yanar çırağı,
Dalğalansın daima
Ulu Türkün bayrağı!

“Tanrı Türkə yar olsun,
Turan ellər var olsun”,
Qoy, aləmə car olsun,
Xar olsun düşmən-yağı,
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Birləşsin Qıpçaq, Oğuz;
Uyğur, türkmən, qaqauz…
İnşaallah, bu Novruz
Hürr olsun “Ağrıdağı”!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

“Məcnun olmur hər dəli”.
Səxalıdır mərd əli!
Söndürməz namərd əli
Haqdan yanan ocağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Ey, yenilməz Ulu Türk!
Qeyrət rəmzin papaq-börk.
Bil, sayılmaz sənə “görk”
Rəngarəng “kəlayağı”!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Türklə var olsun bu yaz
İrəvan, Təbriz, Hicaz…
Ağlamasın Xan Araz,
Şen olsun Kürqırağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Ey türk qızı, inamla
Zikr et  Xalis imanla,
Haqqla, Sahib-Zamanla(ə.f)
Haqqa sığın sübhçağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Odur, bizi oyadan:
Allah, Tanrı, Yaradan!
Şükr et, söküləndə dan,
Pak müsəlman sayağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Səsin Haqqa ucalsın,
Ədalət zəfər çalsın,
Qoy, hər zaman açılsın
Yurduna dost ayağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Dövrün imamı gəlsin,
Məzlumun üzü gülsün!
Düşmən bağrını dəlsin
Şanlı Zəfər sorağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Əsir ruhlar şad olsun,
Könüllər abad olsun.
Yağıdan azad olsun
Ulu Göyçə torpağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

Dolaşaq diyar-diyar,
Dilimizdə bir şüar:
"Yar olsun Pərvərdigar,
Seçək qaradan ağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!"

Sima, arzun "Yeni gün",
Gerçək olsun "gördüyün"!
Hər gün olsun toy-düyün,
Azad gör Qarabağı!
Dalğalansın daima
Ulu Türkün bayrağı!

***04.01.2020. 04:59***

## OĞLUMA VƏFALI QIZ AXTARIRAM

Yayılsın sorağım bütün ellərə:
"Oğluma vəfalı qız axtarıram".
Car olsun aləmə, düşsün dillərə,
Çoxluğun içində "AZ" axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Demirəm, müşkülə salsın işləri.
Demirəm, sədəfdən olsun dişləri.
Ey Ana Vətənin "vətən daşları",
Özgə torpağında "öz" axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Qürurlu-vüqarlı atası olsun,
Abırlı-həyalı anası olsun…
Demirəm, sonalar sonası olsun,
Sonalar içində naz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Ağsaqqal gələndə ayağa dursun,
Ağbirçək görəndə halını sorsun.
Ürəkdən sevərək ailə qursun,
Əhdinə-andına düz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Dünyanın varına boyun əyməsin,
Dinindən çıxmasın, haram geyməsin,
Uşağı döyməsin, haqqı söyməsin...
Müşk-ənbər ətirli "toz" axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Hər zaman nitqini eyləsin qısa,
Toy-düyün olanda batmasın yasa,
Təzə bəzək versin köhnə libasa,
Xariqə yaradan iz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Çalışsın, həyatı dərk etsin özü,
Naşükür olmasın, tox olsun gözü!
Gəzməsin dillərdə söhbəti, sözü,
Ruhumu oxşayan saz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Hər addım atanda desin: "Bismillah..."
Dilində yurd salsın "Əlhəmdulillah".
Hər naxış ilməsi "Ya Sübhanallah";
Zinətlə bəzənmiş bez axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Dinəndə süzülsün ləbinin balı,
Üzündə cəm olsun "İrəvan xalı".
Qoy məni eşitsin Göyçə mahalı!
Yanan ürəyimə buz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Halaldan tutulmuş olsun mayası,
Məşvərət verməsin bibi, xalası,
Əmisi, dayısı.., "adam balası",
Əsil-nəcabətli qız axtarıram -
Oğluma vəfalı qız axtarıram!

Ailə sirrini yaymasın elə...
Xəlvətdə qarğını sancmasın gölə!
Bağçamda yetişən tər qönçə gülə
Tamaşa eyləyən göz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Əşyatək baxmasın oğul-uşağa,
Qaşqabaq tökməsin gələn qonağa,
İffəti gözəllik versin yanağa,
Lalətək qızaran üz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Mehriban dolansın qardaş-bacıyla,
Sınağa çəkməsin ağrı-acıyla.
Ürəkdən sevdiyi tək baş tacıyla
Ömrü başa vuran "yüz" axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Dünyanın baxışı gözündə olan,
Tanrının hikməti sözündə olan,
Müqəddəs kəlamı özündə olan
"Ayə" axtarıram, "cüz" axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Adı mələklərlə qoşa çəkilsin,
Qəlbində təqvadan güllər əkilsin,
Şəninə hikmətdən qala tikilsin,
Qızıldan qiymətli söz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Bizi məftun etsin əqli-kamalı,
Cənnətə götürsün hüsnü-camalı.
Doğru əqidəli, nurlu simalı
"Mən"i əvəz edən "biz" axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Bərəkət gətirsin ocağımıza,
Müjdələr yetirsin "otağımıza".
Qürbətdə nur saçan çırağımıza
Məşəltək əbədi köz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Ey qadir Allahım, düzü düzə yaz,
Ürək bayram etsin, könüllər pərvaz,
Arzular gül açsın hər bahar, hər yaz!
Qarlı zimistanda yaz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

Sima Göyçəlinin diləyidir bu,
Hər ata-ananın gərəyidir bu,
Hər halal ocağın xörəyidir bu,
Halal çörəyimə duz axtarıram,
Oğluma vəfalı qız axtarıram!

***20.02.2019. 01:30***

## MÖHTƏŞƏM MƏBƏDİM, PİRİM, AY ANA

***Anam Firuzə (Bisavad) İslamqızı Ələsgərliyə ithaf edirəm***

Varlığımı varlığına borcluyam,
Mövlam verən dövlət-varım, ay ANA!
Varlığımda "o varlığın" özüsən,
Zəhmətkeş zənburum-arım, ay ANA!

Eləsgər nəfəsli "Göyçə gülü"msən,
Sonası oxlanmış "Göyçə gölü"msən,
Firuzəm, yaqutum, gövhər-ləlimsən,
Tükənməz sərvətim, varım, ay ANA!

Xudadan bağ-bağat, bar istəmirəm,
Dövlət istəmirəm, var istəmirəm,
Yayın ortasında qar istəmirəm,
Baharın yüz olsun, görüm, ay ANA!

Cənnət məkanımsan, Vətən bağımsan,
Sədəflə bəzənmiş ağ otağımsan,
Uca "Çalmalı"msan, "Ağrıdağı"msan,
Quzeydə xar tutan qarım, ay ANA!

Yaradanın töhfə verən payısan,
Nəim cənnətisən, Kövsər çayısan,
İlahəsən, mələklərin tayısan,
Müqəddəs varlığım, hurim, ay ANA!

Həcərül-Əsvədim, müşk-ənbərimsən,
Hər gün baş əydiyim iman yerimsən,
Qibləm, səcdəgahım, Kəbə evimsən,
Möhtəşəm məbədim, pirim, ay ANA!

Tanrı pak yaradır qız övladını,
Əmanət göndərir hər bir qadını.
Hər ana doğrultmur ana adını!
Analar anası - pərim, ay ANA!

...Adınız çəkilir Vətənlə qoşa,
Sizə səcdə qılır ağa, bəy, paşa.
Allahdan diləyir Sima: "Yüz yaşa!",
Susmayan kamanım, tarım, ay ANA!

***12.04.2018. 14:55***

## *Kitabin içindəkilər:*

Ön söz……………………………………………………..3
Yaşa, şanlı ordumun ali baş komandanı........................15
Qürbətdə parlayan qığılcımam mən. ............................22
Ələsgər Dədə. ..................................................................31
Mütləq görüşünə gələcəm bir gün................................33
Təbrikinə kimlər gəldi, şəhidim....................................36
Bəxtimə düşən ulduz......................................................43
Ya sahib əz-zaman(ə.f), gəl. ...........................................45
Səninləyik, Azərbaycan...................................................51
Zirvələrdən enməsin Azərbaycan bayrağı. ..................54
Yad əllərdə qalıbdı...........................................................62
Əbədi zirvədə qaldı Ələsgər............................................64
İnsan..................................................................................73
Göyçə gözəli......................................................................76
Düşərsən............................................................................82
Birləşib çiçəklən, Azərbaycanım.....................................86
Sənə sığınmışıq, sənə, İlahi. ............................................93
El üçün gəlmişdin sən bu həyata...................................100
Ay Simam..........................................................................108
Bir bayrağın altında. .......................................................110
Əzəldən türk qızı türkəm................................................113
Müqəddəs ocağın közüyəm, ana. ..................................116
Şəhidim.............................................................................119
Altun sarayını tikdin, Mübariz. .....................................121
Qızım.................................................................................123

Telli sazın harayı: hardasan. ........................................ 127
Gətirmişəm. ........................................................................ 129
Gəlsin hər səhərin xoş, Sona xanım. ........................... 130
Üç gözəl ömrümdən hey gəlib gedir. ........................... 132
Üç gözəl - uç bacı, yaxud üç qardaş. ........................... 134
Bu günləri bir hikmətə tuş oldum. ............................... 138
Bu günləri bir nemətə tuş oldum. ................................. 139
Ayrılmazdır könül candan, yaşa,
bütöv Azərbaycan. ........................................................ 142
Təzədən doğul, dünya. ................................................. 161
Dalğalansın daima ulu türkün bayrağı. ........................ 163
Oğluma vəfalı qız axtarıram. ....................................... 167
Möhtəşəm məbədim, pirim ay ana. ............................... 172

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 01.12.2020
Şərti çap vərəqi 11. Sifariş № 526
Kağız formatı 60x84 1/16. Tiraj 250

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4